# Türkiyə qisasa hazırlaşır

## Terrorun arxasında hansı güc olursa olsun, mütləq cavabını alacaq



**Türkiyənin İstanbul şəhərində noyabrın 13-də törədilən terror aktı bir neçə ay öncədən planlaşdırılıb.**

Bu informasiya PKK terror təşkilatının liderlərindən biri Duran Kalkanın təşkilatın televiziyasına müsahibəsində ortaya çıxıb. Terrorçuların lideri heç kəsin gözləmədiyi anda və yerdə hücumun olacağını bildirib. Hücumun təkcə cəbhələrdə deyil, Türkiyənin hər yerində olacağını deyib. O, hər yerin döyüş meydanı olduğunu və xüsusilə, noyabr ayında terror aktı törədəcəklərinə işarə edib.

(səh.4)

# Anası dördüncü dəfə ərə gedən 13 yaşlı qız evdən qaçdı



**13 yaşlı qız anasının dəfələrlə ailə qurmasına görə evdən qaçıb.**

Bununla bağlı paylaşımı Azərbaycan Uşaq Birliyinin sədri Kəmalə Ağazadə özünün sosial şəbəkə hesabından edib.

O qeyd edib ki, 13 yaşlı qız Azərbaycan Uşaqlar Birliyi-Uşaq Sığınacağı Reinteqrasiya Mərkəzinə dünən gətirilib:

”Evdən qaçıb. İlkin məlumata görə, anasının dördüncü dəfə ərə getdiyinə görə evdən qaçıb. Uşağın ilkin qiymətləndirilməsində zob xəstəliyindən əziyyət çəkdiyini müəyyən etdik. Bir çox hallarda tiroid problemləri əsəb sarsıntıları ilə bağlı olur”.

№ 208 (5729), 2022-ci il

Qiyməti 40 qəpik

# ŞƏRQ

Günəş Şərqdən doğur!

www.sherg.az 16 noyabr 2022-ci il (çərşənbə)



# Dərsə gedən bir uşaq...

## Son zamanların mənzərəsi belədir: məktəbli uşaqlar metroda yuxulayır, analar çanta daşıyır

**Məktəblərdə tənəffüs müddətinin artırılması təklif olunur.**

Elm və təhsil naziri Emin Əmrullayev AzTV-nin efirində yayımlanan “45 dəqiqə” verilişində məktəblərin birnövbəli tədrisə tam keçidindən söz açaraq, tənəffüs vaxtının artırılması ilə bağlı təkliflərə aydınlıq gətirib: ”Orta hesabla tədris planımızda 36, 34, 29 saat dərs var. Həftədə 5 gün dərsə gəlmək istəyiriksə, sadə şəkildə 30-u 5-ə böldüyümüz zaman dərs 6 saat, yəni altı 45 dəqiqə edir. Tənəffüsləri 5 dəqiqə artırdığımız zaman isə qidalanma problemi yaşanacaq. Yəni uşaqlar səhər saat 8-də yemək yeyib məktəbə gəlir, günortaya kimi dərsi yekunlaşdırıb nahar üçün evə getməlidir.

(səh.6)



# Gələcək əməkdaşlıq üçün çox geniş imkanlar açılır

## Albaniya Azərbaycanın göstərdiyi səyləri alqışlayır

**“Albaniyanın Azərbaycanın ərazi bütövlüyünə göstərdiyi dəstəyi çox yüksək qiymətləndiririk”.**

Bunu Azərbaycan Prezidenti İlham Əliyev Albaniya Respublikasının Prezidenti Bayram Beqayla birgə mətbuata bəyanatında deyib. Dövlət başçısı bildirib ki, beynəlxalq təşkilatlardakı uğurlu əməkdaşlığımız da bizim əlaqələrimizi gücləndirir:

“Siz qeyd etdiniz ki, Albaniya həmişə Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyib və bu dəstək həmişə qarşılıqlı olub. Biz bunu çox yüksək qiymətləndiririk. Həm işğal dövründə, həm İkinci Qarabağ müharibəsi dövründə Albaniya rəsmilərinin bəyanatları, Azərbaycanın ərazi bütövlüyünə göstərilən dəstəyi biz çox yüksək qiymətləndiririk”.

(səh.2)

# Fransa Senatı Azərbaycana qarşı bədnam qətnamə qəbul edib

## İclasda iştirak edən 296 nəfərdən 295-i layihənin lehinə, 1 nəfər əleyhinə səs verib



**Fransa Senatı Azərbaycana qarşı sanksiyaları nəzərdə tutan bədnam qətnamə qəbul edib.**

APA xəbər verir ki, Senat Fransa Konstitusiyasının 34-1-ci maddəsini rəhbər tutaraq Azərbaycana qarşı sanksiya tətbiq edilməsinə dair qanun layihəsini müzakirəyə çıxarıb və qəbul edib.

İclasda iştirak edən 296 nəfərdən 295-i layihənin lehinə, 1 nəfər əleyhinə səs verib.

Qətnamə layihəsində ”Azərbaycanın Ermənistan ərazisindən və Laçın dəhlizindən çəkilməsi” tələb olunub.

(səh.4)

# Zəngəzura gedən yol Xankəndidən keçir

## Daha geniş hərbi əməliyyatlara başlamağın zamanı yetişib



**Qarabağın Rusiya sülhməramlı qüvvələrinin müvəqqəti nəzarətində olan ərazilərindəki qanunsuz erməni silahlı birləşmələri Azərbaycan Ordusuna qarşı təxribatlardan əl çəkmir. Son günlər məhz separatçıların olduğu yerlərdən Silahlı Qüvvələrimizin Xocavənddəki mövqeləri ardıcıl atəşə məruz qalmaqdadır.**

Təbii olaraq, erməni quldurlarının növbəti təxribatları Azərbaycan Ordusunun antiterror əməliyyatını yenidən gündəmə gətirib. İctimaiyyətdə də əksəriyyət tələb edir ki, əgər rus ”sülhməramlıları” erməni təxribatlarına zəmin yaradırsa, separatçıları Qarabağdan çıxarmalı və 44 günlük müharibədə olduğu kimi erməni təxribatlarının kökünü birdəfəlik kəsməlidir. Əks halda separatçılar təxribatlardan əl çəkməyəcəklər. Çünki görünən odur ki, Ermənistan regionda maraqlı qüvvələrin diktəsi ilə hərəkət edir.

(səh.3)

# Kremlin vasitəçilik şansları azalır

## ABŞ və Qərb Ermənistanı sülh sazişini imzalamağa məcbur etməyə çalışır




**Ermənistanın Baş naziri Nikol Paşinyanla ABŞ-ın dövlət katibi Entoni Blinken arasında telefon danışığı olub.**

Tərəflər Ermənistanla Azərbaycan arasında münasibətlərin normallaşmasını, xüsusilə xarici işlər nazirlərinin noyabrın 7-də Vaşinqtonda keçirdikləri görüşünü müzakirə ediblər.

ABŞ-ın dövlət katibi Ermənistan-Azərbaycan münasibətlərinə töhfə verməyə hazır olduğunu söyləyib.

(səh.4)



# İctimai yerlərdə ayıq-sayıq olun!

## Türkiyədə baş verən terrordan sonra hər şübhəli ilə bağlı dərhal lazımi orqanlara məlumat verilməlidir

**“Hər hansı bir şübhəli əşya və ya şəxs gördükdə vətəndaşlar hüquq-mühafizə orqanlarına məlumat verməlidir”.**

Bunu Türkiyədə olduğu kimi ölkəmizdə də terror təhlükəsinin ola bilmə ehtimalını şərh edərkən Azərbaycan təhlükəsizlik orqanlarının və Birinci Qarabağ müharibəsinin veteranı, DTX-nin fəxri əməkdaşı, istefada olan polkovnik Azər Qarayev Trend-ə deyib.

(səh.3)

# Rusiya Ukraynanı raket atəşinə tutub

## Yaşayış binaları dağılıb, elektrik enerjisi kəsilib



**Rusiyanın Ukraynanı raket atəşinə tutması nəticəsində bir sıra şəhər və vilayətlərdə elektrik enerjisi kəsilib.**

”Report” Ukrayna KİV-ə istinadən xəbər verir ki, paytaxt Kiyevdə daha bir çoxmərtəbəli yaşayış binasına raket düşüb.

Bundan başqa, raketlərdən biri Xarkovdakı mühüm əhəmiyyətli infrastrukturu hədəf alıb, metronun hərəkəti dayandırılıb.

Məlumatda həmçinin Jitomırın tamamilə, Lvov, Rivne və digər şəhərlərin qismən elektrik enerjisiz qaldığı bildirilib. Hazırda Kiyev, Xarkov, Vinnitsa, Kovel, Jitomır, Lvov, Poltava, İvano-Frankovsk, Ternopol, Krivoy Roy, o cümlədən digər şəhər və vilayətlərdə partlayışların baş verdiyi qeyd olunub.

# 1 nəfər ölüb

## Son sutkada 36 nəfər koronavirusa yoluxub

**Azərbaycanda koronavirus (COVID-19) infeksiyasına son sutkada 36 yeni yoluxma faktı qeydə alınıb, 39 nəfər müalicə olunaraq sağalıb.**

Nazirlər Kabineti yanında Operativ Qərargahdan ”Şərq”ə verilən məlumata görə, analiz nəticələri müsbət çıxan 1 nəfər ölüb.

İndiyədək ölkədə ümumilikdə 823 761 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib, onlardan 813 612 nəfər müalicə olunaraq sağalıb, hazırda 184 aktiv xəstə var. Bu günə qədər 9 965 nəfər vəfat edib.

Son sutka ərzində yeni yoluxma hallarının müəyyənləşdirilməsi ilə əlaqədar 2 448, bu günə qədər isə ümumilikdə 7 347 597 test icra olunub.



# Dini təhsili qadağan etmək mümkün deyil

## Amma nəzarət mexanizmlərini gücləndirmək mümkündür

(səh.2)



# Son 50 ildə qızılın qiyməti ancaq artıb

## Var-dövlətin uzun vədəli saxlanması üçün qızıl ən yaxşı aktiv hesab olunur

(səh.7)

# Gələcək əməkdaşlıq üçün çox geniş imkanlar açılır

## Albaniya Azərbaycanın göstərdiyi səyləri alqışlayır

**“Albaniyanın Azərbaycanın ərazi bütövlüyünə göstərdiyi dəstəyi çox yüksək qiymətləndiririk”. Bunu Azərbaycan Prezidenti İlham Əliyev Albaniya Respublikasının Prezidenti Bayram Beqayla birgə mətbuata bəyanatında deyib. Dövlət başçısı bildirib ki, beynəlxalq təşkilatlardakı uğurlu əməkdaşlığımız da bizim əlaqələrimizi gücləndirir:**

”Siz qeyd etdiniz ki, Albaniya həmişə Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyib və bu dəstək həmişə qarşılıqlı olub. Biz bunu çox yüksək qiymətləndiririk. Həm işğal dövründə, həm İkinci Qarabağ müharibəsi dövründə Albaniya rəsmilərinin bəyanatları, Azərbaycanın ərazi bütövlüyünə göstərilən dəstəyi biz çox yüksək qiymətləndiririk”.

**“Əminəm ki, bu səfər Albaniya-Azərbaycan əlaqələrinin inkişafına güclü təkan verəcək”**

**Dövlət başçısı qeyd edib ki, bu səfər Albaniya-Azərbaycan əlaqələrinin inkişafına güclü təkan verəcək:** ”Biz sizinlə bu gün təkbətək görüşdə bir çox məsələləri müzakirə etdik və əmin olduğumuzu bildirdik ki, gələcək yaxın əməkdaşlıq üçün çox gözəl imkanlar var. Siyasi dialoqa gəldikdə, Albaniya prezidentləri əvvəlki illərdə Azərbaycana dəfələrlə səfər etmişdilər. Bu il keçmiş prezident Meta Azərbaycanda səfərdə idi. Eyni zamanda, bu ilin aprel ayında Baş nazir Edi Rama da bizim qonağımız idi. Bu gün mənim səfərim onu göstərir ki, siyasi dialoqun çox gözəl təzahürləri var və çox güclü dinamizm var. Bu sıx siyasi təmaslar əlbəttə ki, bizim niyyətimizi göstərir, bir-birimizə olan marağı göstərir. Eyni zamanda, imkan verir ki, çox önəmli məsələlər müzakirə edilsin”.

**“Azərbaycanın NATO ilə sıx əməkdaşlıq platforması var”**

**Prezident İlham Əliyev deyib ki, Azərbaycanın NATO ilə sıx əməkdaşlıq platforması var:** ”Biz uzun illər Əfqanıstanda NATO-nun əməliyyatlarında fəal iştirak etmişdik. Demək olar ki, NATO-ya üzv olmayan ölkələr arasında birincilər sırasındaydıq ki, biz sülhməramlı missiyaya qoşulduq və Əfqanıstandan çıxan son 2 ölkə arasındaydıq. Son iki ölkə Türkiyə və Azərbaycan idi. Bütün qalan NATO üzvləri bizdən qabaq oradan çıxmışdı. Bu da bizim məsuliyyətimizin təzahürüdür. Albaniya da NATO-nun üzvü kimi, NATO-Azərbaycan əlaqələrinə həmişə böyük dəstək verib. Buna görə də mən sizə minnətdaram”.



**“TAP və TANAP-ın iki dəfəyə genişləndirilməsi müzakirə olunur”**

**Azərbaycan Prezidenti bildirib ki, TAP və TANAP-ın iki dəfəyə genişləndirilməsi müzakirə olunur:** ”Yəni Cənubi Qaz Dəhlizi layihəsi cəmi iki ilə yaxındır istismardadır. Amma artıq Cənub Qaz Dəhlizi layihəsi olan hər iki kəmərin genişləndirilməsi müzakirə olunur. Bu onu göstərir ki, buna böyük ehtiyac var, tələbat var. Azərbaycan Aİ rəsmiləri tərəfindən etibarlı tərəfdaş kimi artıq tanınıb və qiymətləndirilir. Əlbəttə ki, biz də bu məsuliyyəti yaxşı başa düşürük. Eyni zamanda, biz sizinlə bu gün Albaniyada qaz təsərrüfatının inkişafına verə biləcəyimiz töhfə haqqında da danışdıq. Bu məsələ ilə bağlı bizim fikirlərimiz var. Albaniyada bu günə qədər qaz şəbəkəsi yaradılmamışdır. Azərbaycan bu sahədə də investor kimi iştirak edə bilər. Biz buna hazırıq. Bu gün bu məsələni və energetika ilə bağlı olan digər məsələləri bundan sonra da müzakirə edəcəyik”.

*Prezident bəyan edib ki, bu gün Azərbaycan qazı Avropanın enerji təhlükəsizliyinə də öz töhfəsini verir:* ”Azərbaycanın və Avropa İttifaqının sədrliyi ilə bu günə qədər keçirilmiş Cənub Qaz Dəhlizi Məşvərət Şurasının bir çox toplantılarında Albaniyanın nümayəndələri həmişə çox fəal iştirak ediblər. Bu gün Azərbaycan qazı Avropanın enerji təhlükəsizliyinə də öz töhfəsini verir. Bu ilin iyul ayında Azərbaycanla Avropa Komissiyası arasında enerji sahəsində strateji əməkdaşlıq üzrə Anlaşma Memorandumu imzalanıb və bu memorandum əsasında biz 2027-ci ilə qədər Avropaya gedən qaz təchizatını iki dəfə artırmaq fikrindəyik. Və təbii ki, bu qaz Albaniya üzərindən keçəcək və beləliklə Avropanın enerji təhlükəsizliyinə əlavə dəstək və töhfə veriləcək”.

**“Aparılan müzakirələr xüsusilə vacibdir”**

**Albaniya Respublikasının Prezidenti Bayram Beqay bildirib ki, aparılan müzakirələr xüsusilə vacibdir:** ”Çünki biz gələcək üçün yeni istiqamətləri müəyyən edirik, bizim üçün maraqlı olan sahələri təyin edirik. Birgə Komitənin iclası iki ölkənin əlaqələrini daha da möhkəmləndirə bilər. Beləliklə Albaniya enerji, infrastruktur, turizm, kənd təsərrüfatı və sənaye sahələrində əməkdaşlığın genişləndirilməsində olduqca maraqlıdır. Əlbəttə ki, enerji sahəsində İon-Adriatik boru kəməri Albaniyanı, Monteneqronu, Xorvatiyanı birləşdirərək, ölkələrimizin geosiyasi əhəmiyyətini artırır və regional, o cümlədən Avropa səviyyəsində qaz təchizatının şaxələndirilməsini nümayiş etdirir. Bilirik ki, bu sahədə ölkənizin sərmayə qoyuluşu baxımından təcrübəsi var. Albaniya, həmçinin öz ərazisində tranzit imkanlarından istifadəyə çox açıqdır və hazırdır. Qaz infrastrukturumuzdan bu məqsədlə tam istifadə olunmasını mümkün hesab edirik. Bu sahədə daha böyük nəticələrin əldə olunmasını səmimiyyətlə arzu edirik. Beləliklə, biz əməkdaşlığımızın yeni yollarını açırıq və bu məqsədlə Azərbaycan tərəfinin göstərəcəyi səyləri alqışlayırıq. Fikrimizcə, birgə işləyərək öz imkanlarımızı səfərbər edə biləcəyik və daha da genişləndirəcəyik”.

**“Biz “Azərbaycan həftəsi”ni keçirmək niyyətindəyik”**

**Albaniya prezidenti deyib ki, ”Azərbaycan həftəsi”ni keçirmək niyyətindədir:** ”Bu gün mən Azərbaycan Prezidenti cənab İlham Əliyevi burada - Tiranada böyük məmnunluqla qəbul edirəm. Cənab Prezident, bizim dəvətimizi qəbul etdiyinizə, bizimlə apardığınız məhsuldar əməkdaşlığa görə təşəkkürümü bildirmək istəyirəm. Azərbaycan Prezidenti ölkəmizə səfər edib. Belə yüksək səviyyəli səfər münasibətlərimizin inkişaf etdirilməsində, xalqlarımız arasında əməkdaşlığın genişləndirilməsində qarşılıqlı iradəmizin təzahürüdür. Ölkələrimiz arasında aparılan dialoqa görə dərin təşəkkürümü bildirirəm. Cənab Prezident, çox yaxşı haldır ki, Siz bu gün ölkəmizdəsiniz. Əslində, bu, qarşılıqlı maraq doğuran əməkdaşlığın yeni sahələrini açır. Albaniya ilə Azərbaycan arasında diplomatik əlaqələrin qurulmasının 30-cu ildönümünün qeyd edilməsinə gəldikdə, 2023-cü ildə biz əməkdaşlığımızın daha intensiv mərhələsinə qədəm qoyacağıq. Biz burada ”Azərbaycan həftəsi”ni keçirmək niyyətindəyik. Əslində, bu tədbir ölkənizin burada mədəni baxımdan təşviq olunması üçün önəmlidir. Biz, həmçinin burada ölkənizin səfirliyinin açılması ilə əlaqədar iradəsini bildirdiyinə görə Azərbaycan tərəfinə minnətdarıq və həmin addım ölkələrimiz arasında əməkdaşlığın yaxşı təzahürüdür”.

**“Azərbaycanın 2019-cu ildəki zəlzələdə göstərdiyi yardımı yüksək dəyərləndiririk”**

**Albaniya prezidenti Azərbaycanın 2019-cu ildəki zəlzələdə göstərdiyi yardımı yüksək dəyərləndirib:** ”Əslində, turizm ölkələrimizin iqtisadiyyatlarının digər mühüm sahəsidir. Azərbaycan uğurlu təcrübəni özündə əks etdirir. Biz bundan yararlana bilərik. Mən cənab Prezidentə bəyan etdim ki, bu sahədə Azərbaycan tərəfindən qoyulacaq sərmayələri yüksək dəyərləndirərdik. Eyni zamanda, mədəniyyət sahəsində birgə işləməliyik ki, xalqlarımız daha yaxın olsun, bir-birini tanısın. Bununla bağlı iki tərəf arasında yeni sazişlər imzalana bilər. Bilirik ki, mədəniyyət və incəsənət sahəsinə aid olan minlərlə eksponat nümayiş etdirilə bilər. Cənab Prezident, mən Sizə bildirdim ki, bu, irsimizin qorunmasına töhfə verəcəkdir. 2019-cu ildə baş vermiş zəlzələdə də göstərilən yardımı yüksək dəyərləndiririk”.

**“Albaniya Azərbaycanın ərazi bütövlüyünü hər zaman dəstəkləyib”**

**Bayram Beqay deyib ki, Albaniya Azərbaycanın ərazi bütövlüyünü hər zaman dəstəkləyib:** ”Ukraynada gedən müharibə və onun nəticələrinə gəldikdə, biz ümumi mövqedən çıxış edirik: diplomatiya və dialoq irəliyə doğru aparan əsas yoldur. Bu, həmçinin Cənubi Qafqaz və digər bölgələr üçün də vacibdir”. O qeyd edib ki, Albaniya Azərbaycanın ərazi bütövlüyünü hər zaman dəstəkləyib və BMT Təhlükəsizlik Şurasının qətnamələrinin icra olunmasına öz dəstəyini verib: ”Ölkələrimiz arasında beynəlxalq təşkilatlarda, BMT-də, Avropa Şurasında məhsuldar əməkdaşlıq aparılır. BMT Təhlükəsizlik Şurasına Albaniyanın namizədliyinə, o cümlədən ATƏT-in sədrliyinə dəstək verilməsi ilə bağlı müraciət etdim. Əlbəttə ki, namizədliyə gəldikdə, bizim əməkdaşlığımız bu baxımdan gələcəkdə də davam etdirilməlidir”.

**İsmayıl**




# İranın layihələri "düyünə düşəcək"

## Çünki bu plan Rusiyanın da maraqlarına ziddir

**”Ermənistan və İran arasında əməkdaşlığın genişlənməsi Zəngəzur dəhlizi və yaxud, bizim dediyimiz kimi, Turan dəhlizinin reallaşma imkanlarını zəiflədir”. Bunu iranlı ekspert Ehsan Mohavedian deyib. Onun sözlərinə görə, Ermənistanla İran arasında ”hərbi və ya siyasi ittifaq” yaranması ehtimalı haqda danışan ekspert bildirib ki, Tehran İrəvanla istənilən əməkdaşlığı alqışlayır, ancaq Ermənistan müstəqil ölkədir, bu qərarı özü verməlidir:**

”Birgə hərbi təlimlərin keçirilməsi və İranın hərbi təcrübəsinin Ermənistana ötürülməsi Tehran üçün arzulanan variantdır. Düşünürəm ki, biz mümkün qədər tez bir zamanda Şimal-Cənub dəhlizi proqramını tamamlamalıyıq. Təəssüf ki, İran şirkətləri bunu növbəti ilin yazına planlaşdırır. Ermənistan və İran arasında iqtisadi, hərbi və kəşfiyyat sahələrində əməkdaşlığın artması Türkiyə, Azərbaycan, İsrail və Böyük Britaniyanın Zəngəzur dəhlizi, bizim təbirimizcə desək, Turan dəhlizinin yaranması imkanlarını aşağı salır”. O, erməni mediasına açıqlamasında qeyd edib ki, İrəvan və Tehran mədəni və tibbi sahədə də əlaqələri genişləndirməlidir ki, Ermənistan mediasının Tehranda filialı yoxdur. Amma Tehranda Azərbaycan və Türkiyə ilə qarşılıqlı əlaqədə olan xəbər agentlikləri var: ”Ermənistan mediası İran ictimaiyyəti ilə birbaşa danışmalıdır və regional hadisələr haqqında birinci əldən, aydın və doğru məlumat verməlidir. Bu halda Türkiyə və Azərbaycanın verdiyi dezinformasiyanın, təbliğatın iranlılara heç bir təsiri olmayacaq. Bu barədə vaxtaşırı danışıram, amma nədənsə, bu vacib məsələyə diqqət yetirilmir”.

**İranlı ekspertin etiraflarını ”Şərq”ə dəyərləndirən politoloq Turab Rzayev deyib ki, Zəngəzur məsələsində Ermənistanın mövqeyi və proseslərə yanaşması bəlli olsa da, İrəvan burada ən zəif bənddir. Analitikə görə, İrəvan hökuməti ətrafın, kənar güclərin ona zorla təklif etdiyi variantlardan hansısa birini seçməyə məhkumdur:** ”Ermənistanın iki seçimi var, ya müttəfiqi bildiyi Rusiya başda olmaqla Azərbaycan və Türkiyənin Zəngəzur dəhlizi layihəsinin reallaşmasına razılıq verməlidir. Yaxud da İranın, Fransanın, onların arxasında olan güclərin təzyiqi ilə ”Şimal-Cənub dəhlizi” layihəsini gündəmdə saxlamaq üçün Zəngəzur dəhlizinə qarşı çıxacaq. Hazırda Paşinyanın Zəngəzur dəhlizinə qarşı çıxmasının səbəbləri İran və Fransadır. İranın mövqeyi isə birbaşa anti-Türkiyə və anti-Azərbaycandır. Tehran açıq şəkildə ifadə edir ki, Zəngəzur dəhlizinə qarşı çıxmasının əsas səbəbi Azərbaycan və Türkiyə arasında quru əlaqəsinin yaranmasıdır. Bunu nəinki etiraf edirlər, üstəlik rəsmi Bakını da hədələyirlər ki, əgər Azərbaycan Zəngəzur dəhlizinin reallaşmasına nail olarsa, Ermənistan ”sərhədləri dəyişərsə”, İran hərbi əməliyyatlara başlaya bilər. İran öz gələcəyini Azərbaycan və Türkiyənin təklif etdiyi regional əməkdaşlıq formatlarında deyil, Ermənistan və Fransa ilə birlikdə hərəkət etməkdə görür”.

“Paşinyanın Zəngəzur dəhlizinə qarşı çıxmasının səbəbləri İran və Fransadır”

**T.Rzayevə görə, İran Ermənistan ərazisini Qara dənizə və oradan Avropaya çıxış imkanı kimi dəyərləndirir:** ”Alternativ kimi Şimal-Cənub dəhlizinin inkişaf etdirilməsi, Hindistandan gələn malların İran və Ermənistan üzərindən Gürcüstana, Qara dənizə çatdırılması üzərində işləyir. Həmçinin, enerji resurslarının da Ermənistan üzərindən çıxarılmasını planlayır. Təbii ki, bunlar Türkiyə və Azərbaycanın maraqlarına cavab vermir. Heç Rusiyanın da maraqlarına uyğun gəlmir. Ona görə Moskva da Tehranın layihələrinə qarşı çıxacaq və reallaşmasına imkan verməyəcək”.

**İsmayıl Qocayev**

# Dini təhsili qadağan etmək mümkün deyil

## Amma nəzarət mexanizmlərini gücləndirmək mümkündür

**“Təcrübə göstərir ki, xaricdə dini təhsil almaq özünü doğrultmur. Çünki həmin ölkələrdə verilən təhsil onların siyasətinə xidmət edir, orada təhsil alan insanlar da istər-istəməz yad dini ideologiyanın təsirinə məruz qalırlar”.**



“Dini təhsilin təhlükə dərəcəsi siyasi potensiala daxil olana qədərdir. Azərbaycanda isə belə potensial yoxdur”

Bu sözləri KİV-ə açıqlamasında Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi sədrinin müavini Səyavuş Heydərov deyib. DQİDK sədrinin müavini Yaxın Şərqdə cərəyan edən proseslərə toxunub: ”Yaxın Şərqdəki proseslər göstərir ki, həmin bölgədə dini təhlükəsizlik məsələləri zamanında həll edilsəydi, bugünkü mənzərə yaşanmazdı. Zamanında məzhəbçilik zəmində baş verən proseslər vətəndaş müharibəsi, dağıntılar və kütləvi insan qırğını ilə nəticələndi. Ona görə də müsəlman dünyası, o cümlədən Şərq ölkələri üçün dini təhlükəsizliyin təminatı olduqca vacib məsələdir. Azərbaycan da bu təhdidlərdən, bu proseslərdən sığortalanmayıb. Çünki dini mövqedən Azərbaycana yönləndirilən təhdidlər, təsirlər bir an belə səngimir. Ona görə də biz ölkəmizdə dini təhlükəsizlik məsələlərinə hər zaman önəm veririk və artıq biz bu ənənəni ulu öndər Heydər Əliyev tərəfindən qoyulmuş siyasətin tərkib hissəsi kimi qəbul edərək diqqət mərkəzində saxlayırıq. Ümumiyyətlə, bizim ölkəmizin din siyasətinə nəzər saldıqda iki başlıca vəzifə qarşımızda durur. Dini etiqad, din azadlığının təminatı dövlətimizin din siyasəti üçün prioritet məsələdir. Ona görə də bütün dini konfessiyaların nümayəndələrinə dövlət tərəfindən kifayət qədər diqqət və qayğı göstərilir. İkinci bir istiqamət dini təhlükəsizliyin təminatıdır. Bu iki məsələ bir-birinə o qədər bağlıdır ki, birində hər hansı gərginlik olarsa, digərinə təsir göstərir. Ona görə də dini təhlükəsizliyin təminatı elə din azadlığının təminatı üçün başlıca bir elementdir”. Komitə sədrinin müavini xaricdə dini təhsil almış din xadimlərinin Azərbaycanda müxtəlif dini vəzifələrdə çalışması məsələsinə də münasibət bildirib və qeyd edib ki, qanuna əsasən milli kadrlara üstünlük verilir: ”Eyni zamanda qanunda xaricdə dini təhsil almış şəxslərin din xadimi kimi fəaliyyət göstərməsinə müəyyən məhdudiyyət var, ancaq istisna hallarda xüsusi yoxlamadan keçdikdən sonra müsbət rəy olduğu halda onları din xadimi kimi təyin edirik”. Sədr müavininin sözlərinə görə, təcrübə göstərir ki, xaricdə dini təhsil almaq özünü doğrultmur. ”Çünki həmin ölkələrdə verilən təhsil onların siyasətinə xidmət edir, orada təhsil alan insanlar da istər-istəməz yad dini ideologiyanın təsirinə məruz qalırlar. Artıq 2018-ci ildən Azərbaycanda İlahiyyat Universiteti fəaliyyət göstərir və bizim milli dini kadrlarımız formalaşır”.

Xarici ölkələrdə digər ixtisaslara yiyələnmək baxımından problem yaşanmadığı halda, niyə məhz dini təhsillə bağlı neqativ hallar üzə çıxır? Deyək ki, Avropanın aparıcı ali məktəblərində hüquq təhsili almağa normal yanaşılır, lakin hansısa müsəlman ölkəsində dini təhsil almağa mənfi reaksiya sərgilənmir? Səbəb nədir?

**Təhsil eksperti Kamran Əsədov ”Şərq”ə açıqlamasında qeyd etdi ki, dini təhsillə dünyəvi təhsil fərqlidir:**

- Azərbaycan Konstitusiyasına əsasən din dövlətdən ayrıdır. Eyni zamanda ölkəmizdə güclü tolerantlıq mühiti mövcuddur. İstənilən dinin mənsublarına ibadətləri, ənənələrini həyata keçirmək üçün lazımi şərait yaradılıb. Həmçinin Azərbaycanda İlahiyyat İnstitutu fəaliyyət göstərir. Bundan əvvəl də Bakı Dövlət Universiteti nəzdində İlahiyyat fakültəsi fəaliyyət göstərirdi. Bu o deməkdir ki, Azərbaycandakı dini təhsil kifayət qədər kadr hazırlamaq imkanına sahibdir. İlahiyyat İnstitutunun olması, ölkəmizdə dini kadrların hazırlanması üçün yetərlidir. Soruşursunuz ki, niyə dini təhsilə baxış birmənalı deyil. Baxın, kimsə hansısa ixtisasa yiyələnmək üçün Türkiyə, Avropa ali məktəblərinə üz tutur. İxtisasa yiyələnir, ölkəsinə qayıdır və əldə etdiyi biliklər onun öz ölkəsinə daha da faydalı olmasına kömək edir. Lakin dini təhsil haqqında bunu söyləyə bilmərik. Niyə? Çünki din güclü faktordur. Din amilindən həmişə istifadə olunub. Hansısa ölkədə dini təhsil alanlar istər-istəməz o ölkənin təsiri altına düşürlər. Aldıqları təhsilin təbliğatçısına çevrilirlər. Başqa bir ölkədə dini təhsil alanın təsir altına düşməsi real faktordur. Deyə bilərsiniz ki, kimsə dinin müsbət tərəflərini təbliğ edə bilər. Amma bu məsələdə ehtimallara yer yoxdur. Nə yanlışlıqlar, nə də doğrular - ümumiyyətlə dini təbliğata icazə verilmir.

**K.Əsədov dini təhsilin qadağan edilməsinin mümkün olmayacağını diqqətə alaraq burada nəzarət mexanizminin güclü olmasının vacibliyini vurğuladı:**

- Təhsil yayqın sahədir. Xarici ölkələrdə dini təhsil almağın qarşısını kəsmək, əlbəttə çətindir. Birmənalı şəkildə bunu qadağan etmək mümkün deyil. Amma nəzarət mexanizmlərini gücləndirmək mümkündür. DQİDK sədr müavini də bunu söylədi, bildirdi ki, xaricdə dini təhsil almış şəxslər istisna hallarda xüsusi yoxlamadan keçdikdən sonra, müsbət rəy olduğu halda din xadimi olaraq təyin edilir. Əsas odur ki, dini təhsil alanlar insanlığı təbliğ etsin. Radikallığı, münaqişələri deyil. Dini təhsilin təhlükə dərəcəsi siyasi potensiala daxil olana qədərdir. Azərbaycanda isə belə potensial yoxdur. Bəzən, sadəcə, ictimai asayişi pozmağa cəhdlər edilir, bunun da qarşısı alınır.

**Məlahət Rzayeva**



# Tarixi səfər

## Azərbaycan-Albaniya siyasi dialoqu yüksələn xətlə inkişaf etməkdədir

**Mərkəzi və Şərqi Avropa ölkələri, o cümlədən Albaniya ilə ikitərəfli və çoxtərəfli əməkdaşlığın inkişafı ölkəmizin xarici siyasətinin vacib istiqamətlərindən biridir. Noyabrın 15-də Azərbaycan Prezidenti İlham Əliyev Albaniya Respublikasına səfər edib. Bu səfər Prezident İlham Əliyevin Albaniyaya ilk səfəridir.**

Səfərin məqsədi ölkələrimiz arasında yüksək səviyyədə olan əlaqələrin daha da inkişafına və qarşılıqlı maraq doğuran sahələrdə əməkdaşlığın gücləndirilməsinə töhfə verməkdir. İkitərəfli münasibətlərin gündəliyində olan aktual məsələlərin müzakirəsi məqsədilə Azərbaycan dövlət başçısı Albaniya Respublikasının Prezidenti Bayram Beqay və Baş nazir Edi Rama ilə təkbətək və geniştərkibli görüşləri keçirilib. Daha sonra ölkə başçıları mətbuata bəyanatla çıxış ediblər. Ölkələrimiz arasında siyasi dialoq yüksələn xətlə inkişaf etməkdədir. 2016-2019-cu illərdə Nizami Gəncəvi Beynəlxalq Mərkəzi tərəfindən təşkil edilən Qlobal Bakı forumlarına bir qayda olaraq Albaniya Respublikasının Prezidenti, həmçinin Mərkəzin fəaliyyətində fəal iştirak edən keçmiş prezidentləri qatılıblar. Qeyd edək ki, Azərbaycan ilə Albaniya arasında diplomatik münasibətlər 1993-cü ilin sentyabrın 23-də qurulub. Bu münasibətlərin 30-cu ildönümü ilə əlaqədar gələn il Albaniyada ”Azərbaycan həftə”sinin təşkil olunması planlaşdırılır. İki ölkə arasında siyasi dialoq daim yüksək səviyyədə olub. Albaniya prezidentləri ölkəmizə 5 işgüzar səfər, baş nazirləri isə 2 rəsmi və 2 işgüzar səfər ediblər. 2022-ci il aprelin 14-də Azərbaycana rəsmi səfər edən Albaniyanın Baş naziri Edi Rama Bakıda olarkən deyib: ”Albaniya ATƏT-in sədri və hazırda BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü kimi hər zaman Azərbaycanı, həqiqəti və ölkənizin tarixi hüquqlarını dəstəkləyir və bunu etməyə davam edəcək”. Baş nazir, həmçinin əlavə edib: ”Biz sizin qonşunuz Ermənistanla sülhə və uzunmüddətli əməkdaşlığa yönəlmiş olduqca nümunəvi səylərinizi alqışlayırıq”. Bu il iyunun 16-da Albaniyanın ovaxtkı prezidenti İlir Meta isə IX Qlobal Bakı Forumunda iştirak etmək üçün Azərbaycana işgüzar səfərə gəlib. Bakıda olarkən Prezident İlham Əliyevə və Azərbaycan xalqına yeni uğurlar arzulayan Albaniya dövlətinin başçısı İlir Meta TAP layihəsinin müvəffəqiyyətlə başa çatdırılması ilə əlaqədar Azərbaycan Prezidentinə təşəkkürünü bildirib. O, işğaldan azad olunmuş ərazilərimizdə həyata keçirilən genişmiqyaslı quruculuq işlərində Azərbaycana uğurlar arzulayıb. Albaniya və Azərbaycan xalqlarının qardaş xalqlar olduğunu deyən İlir Meta gələn il ölkələrimiz arasında diplomatik əlaqələrin qurulmasının 30 illiyinin qeyd ediləcəyini məmnunluqla bildirib. Azərbaycan Prezidenti İlham Əliyev isə öz növbəsində IX Qlobal Bakı Forumunda iştirakına görə Albaniya Prezidenti İlir Metaya təşəkkürünü bildirib. Dövlətimizin başçısı Albaniyanın həmişə olduğu kimi, İkinci Qarabağ müharibəsində də Azərbaycanın ərazi bütövlüyünə verdiyi dəstəyi yüksək qiymətləndirib və vurğulayıb ki, bu, Albaniyanın Azərbaycan üçün dost və qardaş ölkə olduğunu bir daha göstərir. Buvaxtadək Azərbaycan və Albaniya arasında 8 sənəd, o cümlədən 2013-cü il aprelin 8-də Bakıda ”Azərbaycan Respublikası Hökuməti və Albaniya Respublikası Hökuməti arasında iqtisadi, sənaye və texnoloji sahələrdə əməkdaşlıq haqqında Saziş” imzalanıb. İqtisadi sahədə əməkdaşlığa gəlincə deməliyik ki, Azərbaycan və Albaniya arasında 2016-2017-ci illərdə ticarət əlaqələrində canlanma müşahidə edilib. İki ölkə arasında iqtisadi-ticarət əlaqələrinin geniş potensiala malik olması baxımından tərəflər bu sahədə əməkdaşlığın inkişafı məqsədilə birgə səyləri artırmağı məqsədəuyğun hesab edirlər. Enerji sahəsində əməkdaşlıq isə iqtisadi əlaqələrimizin əsas istiqamətidir. Cənub Qaz Dəhlizinin sonuncu seqmenti olan Trans-Adriatik Boru Kəməri (TAP) layihəsinin həyata keçirilməsi strateji əhəmiyyət daşıyır və hər iki ölkə bu istiqamətdə uğurla əməkdaşlıq edib. Eyni zamanda, Albaniya Azərbaycan tərəfinin ölkənin enerji infrastrukturunda aktiv iştirakında maraqlıdır. Albaniyanın yüksək səviyyəli rəsmiləri Cənub Qaz Dəhlizi Məşvərət Şurasının bütün iclaslarında iştirak edib və layihənin icrasına töhfə veriblər. Albaniya TAP vasitəsilə Cənub Qaz Dəhlizinin (CQD) iştirakçısıdır. TAP layihəsi üzrə Hökumətlərarası Saziş 2013-cü ilin fevral ayında Albaniya, İtaliya və Yunanıstan dövlətləri arasında imzalanmış və 2016-cı ilin mart ayından tikinti işləri başlayıb. 2020-ci ilin dekabrın 31-də TAP boru kəməri vasitəsilə kommersiya qazının nəqlinə başlanılıb. Albaniya podratçı şirkətləri də TAP boru kəmərinin tikinti işlərində iştirak ediblər. TAP layihəsinin həyata keçirilməsi çərçivəsində Albaniya öz tranzit imkanlarından faydalanması ilə yanaşı, layihənin icrası Albaniyada məşğulluğun artmasına böyük töhfə verib. Layihə, həmçinin Albaniya üçün ÜDM və büdcə gəlirlərinin artımını təmin edib. Trans-Adriatik Boru Kəmərinin Albaniya üçün faydalarına gəldikdə isə qeyd etməliyik ki, TAP konsorsiumu Albaniyaya 1,5 milyard avro dəyərində sərmayə yatırıb. Layihənin ömrü ərzində (tikintisi və 25 il istismar mərhələsi dövründə) ölkəyə gözlənilən vergi ödənişləri 285 milyon avro olacaq. Həm Albaniya, həm də Azərbaycan ikitərəfli iqtisadi əməkdaşlığın, o cümlədən energetika sahəsində daha da inkişaf etdirilməsinə maraq göstərir. 2021-ci ildə Albaniya Azərbaycanın 79-cu xarici ticarət tərəfdaşı olub. Həmin ildə ölkələrimiz arasında ticarət dövriyyəsinin həcmi 4,95 milyon ABŞ dolları, o cümlədən idxalın həcmi 0,66 milyon dollar, ixracın həcmi 4,29 milyon dollar təşkil edib, xarici ticarət saldosu isə müsbət 3,63 milyon dollar olub. Əvvəlki illə müqayisədə, ötən il Albaniya ilə ticarət dövriyyəsi 12,83 dəfə çox olub, o cümlədən idxal 70,47 faiz artıb, ixrac əməliyyatları bərpa olunub. 2022-ci ilin yanvar-sentyabr aylarında Albaniya Azərbaycanın 86-cı xarici ticarət tərəfdaşı olub. Ölkələrimiz arasında ticarət dövriyyəsinin həcmi 1,45 milyon ABŞ dolları, o cümlədən idxalın həcmi 1,14 milyon dollar, ixracın həcmi 0,31 milyon dollar təşkil edib, xarici ticarət saldosu isə mənfi 0,83 milyon dollar olub. Ötən ilin müvafiq dövrü ilə müqayisədə, cari ilin yanvar-sentyabr aylarında Albaniya Respublikası ilə ticarət dövriyyəsi 2,78 dəfə, o cümlədən idxal 2,69 dəfə, ixrac isə 3,14 dəfə çox olub. Azərbaycanda tikinti və xidmət sahələrində fəaliyyət göstərən 3 Albaniya investisiyalı şirkət qeydiyyatdan keçib. 2019-cu il noyabrın 26-da Albaniyada baş vermiş zəlzələnin fəsadlarının aradan qaldırılması məqsədilə Azərbaycan tərəfindən humanitar yardım olaraq 500 min avro ayrılıb.

**Millət vəkili Vüqar Bayramov deyib ki, Albaniya ilə Azərbaycan arasında iqtisadi əlaqələrdə son illər inkişaf müşahidə edilir:** ”2021-ci ildə iki ölkə arasındakı ticarət dövriyyəsi əvvəlki ilə nisbətən 11 dəfə artaraq 4 milyon 951 min dollara çatıb. Bu ilin ilk 9 ayında isə ölkələr 1 milyon 456 min dollarlıq ticarət həyata keçiriblər. Bununla belə, ölkələr arasında ticarət potensialı daha yüksəkdir və Azərbaycan Prezidentinin səfərindən sonra münasibətlərin yeni mərhələyə qədəm qoyacağı gözlənilir. Eyni zamanda, Albaniya Azərbaycan mavı qazını almaq istəyən ölkələrdəndir. Gözlənilir ki, ölkələr arasında yeni enerji əməkdaşlığı formalaşacaq və Azərbaycan Avropada ittifaqa üzv olmayan dövlətlərin də enerji təhlükəsizliyinə xüsusi töhfə verəcək. Albaniya TAP kəməri vasitəsi ilə Azərbaycan qazını idxal etmək imkanına malikdir. Qeyd edək ki, Azərbaycan bu il Avropaya 11.5 milyard kub metr mavi qaz nəql etməyi planlaşdırır. 2026-cı ilədək ”qoc qitəyə” mavi qaz nəqlinin 2 dəfə artırılması nəzərdə tutulur. Prezident İlham Əliyevin son səfəri iki ölkə arasındakı əlaqələri daha da inkişaf etdirməklə yanaşı, Azərbaycanın regional enerji təhlükəsizliyinin formalaşmasındakı rolunu daha da artıracaq”.

**İsmayıl**

# "Bu, bölgədə sülhə mane olacaq"

## Turab Rzayev: “Fransa Ermənistanı silahlandırıb, ordusuna təlim keçməyi planlaşdırır”

**Fransa yenidən əvvəlki mövqeyinə qayıdaraq Aİ-nin başlatdığı Brüssel sülh görüşlərinə dəstək verməlidir**



”Biz açıq şəkildə Fransanın Azərbaycana qarşı qərəzli mövqe ortaya qoyduğunu və hadisələrin sistemli şəkildə həyata keçirildiyini görürük”.

**Bunu ”Şərq”ə açıqlamasında siyasi şərhçi Turab Rzayev azərbaycanlıların Fransa senatı qarşısında etiraz aksiyası keçirməsinə münasibət bildirərkən deyib:**

Analitik bildirib ki, Fransa XİN-in açıqlaması, Makronun Praqa görüşünün ardından dövlət televiziyasında Azərbaycanı tənqid etməsi və Senatda Azərbaycan əleyhinə qanun layihəsinin hazırlanması isə bunun ən bariz nümunəsidir: ”Biz baxsaq görərik ki, Senatın hazırladığı layihə təktərəflidir.

Burada bir neçə yüz erməni qaçqınına və Azərbaycan Ordusunun guya Ermənistan abidələrini dağıtmasına dair məlumatlar yer alıb. Amma Ermənistanın 30 ildir, etdiyi vəhşilikdən, 1 milyondan çox qaçqının aqibətindən və Gəncə, Tərtər, Bərdə kimi şəhərlərdə raket zərbələri nəticəsində ölən mülki əhalidən heç bir məlumat yoxdur. Yəni təktərəfli şəkildə Ermənistanın maraqları müdafiə olunur. İşin ən qəribəsi isə Azərbaycanın Ermənistana ”təcavüz” etdiyi iddia olunan və sülhə çağıran bu qətnamədə Ermənistanı silahlandırmaq və onların ordusuna təlim keçmək nəzərdə tutulur. Bu isə bölgədəki sülhə mane olacaq”.

Layihəyə qarşı isə Azərbaycan xalqı tərəfindən petisiya başladıldığını deyən ekspert əlavə edib ki, artıq petisiyaya 120 milyondan çox imza toplanılıb və Fransanın Nümayəndələr Palatasına göndərilib:

”Buna qədər isə Moskvada, Bişkekdə və Bakıdakı Fransa səfirliyinin qarşısında aksiyalar keçirilib. İndi isə Fransada baş tutan mitinqdə açıq şəkildə rəsmi Parisin təktərəfli mövqeyi ortaya qoyulacaq və Senata çatdırılacaq ki, onların etdikləri bölgədəki sülhə xidmət etmir. Fransa yenidən əvvəlki mövqeyinə qayıdaraq Aİ-nin başlatdığı Brüssel sülh görüşlərinə dəstək verməlidir. Əks halda bu qərəzli mövqe həm Azərbaycan-Ermənistan, həm də Fransa-Azərbaycan münasibətlərini gərginləşdirməyə davam edəcək”.

**Nihat Müzəffər**

# İctimai yerlərdə ayıq-sayıq olun!

## Türkiyədə baş verən terrordan sonra hər şübhəli ilə bağlı dərhal lazımi orqanlara məlumat verilməlidir



**”Hər hansı bir şübhəli əşya və ya şəxs gördükdə vətəndaşlar hüquq-mühafizə orqanlarına məlumat verməlidir”.**

Bunu Türkiyədə olduğu kimi ölkəmizdə də terror təhlükəsinin ola bilmə ehtimalını şərh edərkən Azərbaycan təhlükəsizlik orqanlarının və Birinci Qarabağ müharibəsinin veteranı, DTX-nin fəxri əməkdaşı, istefada olan polkovnik Azər Qarayev Trend-ə deyib.

Onun sözlərinə görə, bütün vətəndaşlar həmişə ayıq-sayıq olmalıdır: ”Bu gün terrora qarşı mübarizədə hüquq-mühafizə orqanları ilə bərabər, vətəndaşlar da həmişə ayıq-sayıq olmalıdır. Türkiyədə baş verən hadisəni diqqətlə nəzərdən keçirsək, görərik ki, Türkiyədə partlayış zamanı terrorçu çantanı insanların gur toplaşdığı yerdə qoydu və ondan sonra partlayış baş verdi. Əgər kimsə zamanında həmin şübhəli çantanı görsəydi, dərhal hüquq-mühafizə orqanlarına məlumat verərdi və hadisənin miqyasının müəyyən mənada qarşısı alına bilərdi. Əlbəttə ki, bunlar ehtimallardır, istənilən halda həm Türkiyə, həm də Azərbaycan vətəndaşları ayıq-sayıq olmalıdır.

Bəzən görürsən ki, yolda hər hansı bir naməlum əşya var, gənclər gəlib ona toxunur, təpikləyirlər. Belə hallara yol vermək olmaz. Azərbaycanda 90-cı illərdə xeyli terror hadisəsi törədilib. Yəni kimsə hər hansı bir əşya görürsə, düşünməlidir ki, burada partlayıcı maddə ola bilər. Xüsusilə, insanların kütləvi olduğu yerlərdə vətəndaşlar ayıq-sayıq olmalıdırlar. Hər hansı bir şübhəli əşya və ya şəxs gördükdə vətəndaşlar hüquq-mühafizə orqanlarına məlumat verməlidir”.

**Politoloq Qabil Hüseynli isə ”Şərq”ə açıqlamasında terror təhlükəsindən heç bir ölkənin sığortalanmadığını, terrorun bütün dünya üçün təhdid olduğunu deyib:** ”Siyasi məqsədlər üçün günahsız insanlara qarşı törədilən qanlı faciələrin heç bir izahı yoxdur. Biz də ətrafımızda baş verən bu hadisələrdən lazımi dərs çıxarmalıyıq. Öncə ölkədə təhlükəsizlik tədbirlərini gücləndirmək və mümkün təhlükənin hardan gələ biləcəyini müəyyənləşdirmək lazımdır. Digər lazımi tədbir isə əhalinin ayıq-sayıq olmasıdır, vətəndaşlar şübhə doğuran hallar haqqında dərhal hüquq-mühafizə orqanlarına məlumat verməlidirlər”.

**Politoloq Ermənistandan başqa hansısa digər konkret ölkənin Azərbaycanda terror olayında maraqlı olduğunu düşünmədiyini deyib:** ”Çünki belə bir hadisə baş verərsə, terrorun mənbəyi dərhal bəlli olacaq və Azərbaycanın həmin ölkə ilə münasibətləri gərginləşəcək. Buna baxmayaraq müxtəlif ölkələrdə fərqli qruplar da var ki, onlar Azərbaycanı içəridən qarışdırmaq üçün istənilən plan tərtib edə bilərlər. Ona görə təhlükəsizliyimizə cavabdeh olan qurumlar həmin qrupların Azərbaycana müdaxilə imkanlarını neytrallaşdırmalıdırlar”.

**Şəymən Bayramova**

# Zəngəzura gedən yol Xankəndidən keçir

## Daha geniş hərbi əməliyyatlara başlamağın zamanı yetişib

**Qarabağın Rusiya sülhməramlı qüvvələrinin müvəqqəti nəzarətində olan ərazilərindəki qanunsuz erməni silahlı birləşmələri Azərbaycan Ordusuna qarşı təxribatlardan əl çəkmir. Son günlər məhz separatçıların olduğu yerlərdən Silahlı Qüvvələrimizin Xocavənddəki mövqeləri ardıcıl atəşə məruz qalmaqdadır.**



“Ermənistan real təhlükənin fərqinə varmasa, müharibəni öz ölkəsinin içərilərində yaşamasa, qaçqın axınına məruz qalmasa, ağıllanmayacaq”

Təbii olaraq, erməni quldurlarının növbəti təxribatları Azərbaycan Ordusunun antiterror əməliyyatını yenidən gündəmə gətirib. İctimaiyyətdə də əksəriyyət tələb edir ki, əgər rus ”sülhməramlıları” erməni təxribatlarına zəmin yaradırsa, separatçıları Qarabağdan çıxarmalı və 44 günlük müharibədə olduğu kimi erməni təxribatlarının kökünü birdəfəlik kəsməlidir. Əks halda separatçılar təxribatlardan əl çəkməyəcəklər. Çünki görünən odur ki, Ermənistan regionda maraqlı qüvvələrin diktəsi ilə hərəkət edir. Bir məqamı da diqqətə çatdıraq ki, ötən gün Rusiya sülhməramlılarının müşayiəti ilə ”erməni zəvvarlar” Amaras monastrını ziyarət ediblər. Ziyarətlə bağlı açıqlamada ”orta əsrlərdə mövcud olmuş Ermənistan”, ”Dağlıq Qarabağ və burada mövcud olan Martuni rayonu”ndan da bəhs olunub. Ermənistan mətbuatı məlumat yayıb ki, ilk dəfə olaraq Ermənistanın katalikosu II Qareginin ”xeyir-dua”sı ilə ”Xankəndi kilsəsi”ndə keşiş təyinetmə mərasimi keçiriləcək.

**AĞ Partiyanın sədr müavini Əhəd Məmmədli ”Şərq”ə deyib ki, Rusiyadan gələn bir milyarderin - Ruben Vardanyanın qondarma rejimdə ”vəzifəyə” gəlməsi, Xankəndidə daşınma ermənilərlə ”mitinq” keçirilməsi, Qarabağın ”Azərbaycan ərazisi olmayacağı” ilə bağlı şüarlar separatçıları cəsarətləndirib. Analitikə görə, son dönəmlər Nikol Paşinyan da çıxışlarında sülhə zidd, danışıqlar prosesini pozmağa hesablanmış açıqlamalar verməkdədir:** ”Bütün bunlar bir daha göstərir ki, artıq Qarabağda anti-terror əməliyyatlarının vaxtıdır. Yaxın aylarda anti-terror əməliyyatına başlamasaq, rusların ”sülhməramlı” adı altında torpaqlarımızda qalma müddəti də uzanacaq. Ermənistan baş naziri bunun konturlarını cızmaqdadır. O, bir neçə dəfə bəyan edib ki, rus qoşunları bölgədə daha uzun müddət, hətta daimi qalmalıdır. Ermənilər yenə ruslara, fransızlara, amerikalılara, iranlılara güvənirlər. Hindistan da Ermənistana silah verir. İrəvan elə düşünür ki, həqiqətən güclüdür və revanş almaq iqtidarındadır. Ona görə də erməniləri ağıllandırmaq üçün həm Qarabağda, həm də Zəngəzur, Göyçə istiqamətində də daha genişmiqyaslı hərbi əməliyyatlara başlamalıyıq. Ermənistan real təhlükənin fərqinə varmasa, müharibəni öz ölkəsinin içərilərində yaşamasa, qaçqın axınına məruz qalmasa, ağıllanmayacaq. Ancaq növbəti və daha genişmiqyaslı hərbi əməliyyatlardan sonra Qarabağdan birdəfəlik əl çəkəcəklər. Biz əbəs yerə demirik ki, Zəngəzura gedən yol Xankəndidən keçir”.

**İsmayıl Qocayev**

# Kremlin vasitəçilik şansları azalır

## ABŞ və Qərb Ermənistanı sülh sazişini imzalamağa məcbur etməyə çalışır



**Ermənistanın Baş naziri Nikol Paşinyanla ABŞ-ın dövlət katibi Entoni Blinken arasında telefon danışığı olub. Tərəflər Ermənistanla Azərbaycan arasında münasibətlərin normallaşmasını, xüsusilə xarici işlər nazirlərinin noyabrın 7-də Vaşinqtonda keçirdikləri görüşünü müzakirə ediblər.**

ABŞ-ın dövlət katibi Ermənistan-Azərbaycan münasibətlərinə töhfə verməyə hazır olduğunu söyləyib. Tərəflər humanitar məsələlərin həlli də daxil olmaqla, regionda təhlükəsizlik və sabitlik səviyyəsinin artırılmasına yönəlmiş addımların müzakirəsini davam etdirmək barədə razılığa gəliblər. Bu arada Ermənistanın Xarici işlər naziri Ararat Mirzoyan və Rusiya xarici işlər nazirinin xüsusi nümayəndəsi İqor Xovayev İrəvanda görüşüb və sərhədin delimitasiyası, regionda nəqliyyat infrastrukturlarının açılması və s. məsələləri müzakirə ediblər. Xovayevi Baş nazir Nikol Paşinyan da qəbul edib. Ermənistan Təhlükəsizlik Şurasının katibi Armen Qriqoryan isə növbəti dəfə danışıqlar prosesinə və sülhə zidd açıqlamalar səsləndirib. O deyib ki, Ermənistan bütün platformalarda eyni şeyi deyir və eyni gündəliyi irəli sürür. Sülh prosesinin hansı platformada getməsinin heç bir fərqi yoxdur. Ermənistan TŞ katibi iddia edib ki, danışıqlarda Qarabağ məsələsi də müzakirə olunur: "Məsələni sonraya saxlamaq və ya beynəlxalq mexanizm yaratmaq variantı var. Qarabağ problemi həll edilmədən sülh müqaviləsi bağlamaq mümkün deyil. Qarabağdan yan keçmək mümkün deyil, bütün görüşlərdə müzakirə olunur, gündəmdədir. Hazırda Qarabağ probleminin sülh müqaviləsi prosesindən necə ayrılması ilə bağlı müzakirələr gedir".

**Politoloq Elçin Xalidbəyli "Şərq"ə deyib ki, hazırda Cənubi Qafqaza nəzarət uğrunda mübarizə həlledici mərhələyə keçib. Analitikə görə, bu mübarizədə Azərbaycan-Ermənistan münasibətlərinin nizamlanması əsas geopolitik platforma rolunu oynayır:** "Regionda maraqları olan beynəlxalq güclər öz hədəflərini məhz bu platforma üzərində indeksləşdiriblər. Ona görə də ABŞ və Qərbin Azərbaycan-Ermənistan arasında sülhyaratma prosesində Rusiya ilə açıq rəqabət apardığı müşahidə olunur. ABŞ və Qərb əmindir ki, Rusiyanı Cənubi Qafqazdan tamamilə sıxışdırıb çıxarmaq üçün Ermənistanı Kremlin təsir dairəsindən mütləq uzaqlaşdırmaq lazımdır. Ancaq ABŞ və Qərb onu da anlayır ki, Azərbaycanın maraqlarını təmin etmədən bu hədəfə çatmaq mümkün deyil. Yəni Rusiyanı Cənubi Qafqazdan çıxartmaq üçün ilk növbədə əsas regional münaqişə məhz Azərbaycanın maraqları çərçivəsində həll edilməlidir. Əks halda, rəsmi Bakı Ermənistanla anlaşma ehtimalını yaxına buraxmayacaq, silahlı münaqişə davam edəcək və hətta bərpa olunma təhlükəsi daşıyacaq. Təbii ki, məhz belə situasiya Rusiyanın regional maraqlarına tamamilə cavab verir. Çünki münaqişə davam etdikcə və gərginlik qaldıqca, Rusiya hər iki tərəfə təsir mexanizmlərini qoruyub, saxlaya biləcək. Bəzi məlumatlara görə, ABŞ və Qərb bütün bu faktorları nəzərə alaraq, Ermənistanı Azərbaycanla rəsmi Bakını qane edəcək şərtlər daxilində yekun sülh sazişini imzalamağa məcbur etməyə çalışır. Həmin yekun sülh sazişi nəticəsində Ermənistan Azərbaycanın ərazi bütövlüyünü qeyd-şərtsiz tanımalıdır və hər hansı ərazi iddialarından imtina etməlidir. Və rəsmi İrəvan da bu varianta yaxınlaşmaq üzrədir".

**E.Xalidbəyli vurğulayıb ki, Kremldə ABŞ və Qərblə Ermənistan arasında baş verənləri tam dəqiqliyi ilə bilirlər:** "Ona görə də Kreml də son vaxtlar fəallaşıb və Rusiyanın regional maraqlarını xilas etmək məqsədilə sülh prosesini pozmağa cəhd göstərir. Bu baxımdan, Rusiya Cənubi Qafqazdakı mövqelərini qorumaq üçün ABŞ və Qərblə sözün əsl mənasında yarışır. Kreml indiki situasiyada ABŞ və Qərbin atdığı bütün addımlara əks senarilərin ön plana keçirilməsinə cəhd göstərir. Təbii ki, rəsmi İrəvan da Ermənistanın ABŞ və Qərblə Rusiya arasında "nifaq alması"na çevrildiyini anlayır. Ona görə də bu situasiyadan maksimum səviyyədə yararlanmağa, Ermənistanın xeyrinə hansısa güzəştlər qoparmağa can atır. Paşinyan hakimiyyətinin həm ABŞ və Qərblə, həm də Rusiya ilə "oynamağa" çalışmasının əsas səbəbi də məhz budur. Eyni zamanda, Paşinyan hakimiyyəti Kremli siyasi cəhətdən şantaj etmək şansını da əldən buraxmaq istəmir. Ona görə də rəsmi İrəvan Rusiyanın sülh sazişi ilə bağlı təkliflərini dəstəklədiyini bəyan edir. Bununla da, Kremlə "Rusiya verdiyi vədləri yerinə yetirsə, biz həmişə onun yanında olmağa hazırıq" mesajı verir. Əks halda, ABŞ və Qərblə anlaşmaqdan başqa çarəsinin qalmayacağına eyham vurmuş olur".

**Ekspertin fikrincə, Paşinyan hakimiyyəti ABŞ və Qərbin sülh vasitəçiliyinin şərtlərini qəbul etməyə də tamamilə hazır görünür:** "Sadəcə, Rusiya faktoru hələlik buna əngəl olur. Onu da qeyd etmək lazımdır ki, ABŞ və Qərbin sülh vasitəçiliyi əsasən Azərbaycanın təklif etdiyi beş əsas prinsipə bağlı saziş layihəsi üzərində qurulub. Rəsmi İrəvanın, o cümlədən də Baş nazir Nikol Paşinyan, Xarici işlər naziri Ararat Mirzoyan və Təhlükəsizlik Şurasının katibi Armen Qriqoryanın sülh prosesinə zidd açıqlamaları isə daha çox Ermənistanda daxili auditoriyaya hesablanıb. Rəsmi İrəvan bu açıqlamalar ilə Ermənistan cəmiyyətinin mövqeyini maksimum səviyyədə müdafiə etməyə cəhd göstərdiyi barədə rəy yaratmağa çalışır. Ancaq rəsmi İrəvan da anlayır ki, bu prosesin sonunda istəsə də, istəməsə də, Azərbaycanın diktə etdiyi şərtlər çərçivəsində yekun sülh sazişini imzalamaq məcburiyyətində qalacaq".

**İsmayıl Qocayev**



# Prezidentin Albaniyaya səfəri ilkdir

## "Albaniya və Azərbaycan geostrateji mövqelərinə görə də Qərbdə maraqla qarşılanan ölkələr hesab edilir"

**"Azərbaycanın düşünülmüş rasional siyasi kursu bu gün ölkəmizi Qərbdə və Şərqdə aparıcı mövqelərə gətirib. Prezident İlham Əliyevin Bolqarıstan və Çexiya səfərləri, ardınca Gürcüstan və Mərkəzi Asiyada verdiyi bəyanatlar, ona olan ehtiram Azərbaycanın dünyəvi gücünün göstəricisidir. Bu baxımdan İlham Əliyevin Albaniya səfəri bizim üçün müstəsna əhəmiyyətə malikdir".**

*Bu fikirləri "Şərq"ə açıqlamasında Sosial Tədqiqatlar Mərkəzinin (STM) sektor müdiri, politoloq Tural İsmayılov Prezident İlham Əliyevin Albaniyaya səfərindən danışarkən söyləyib.*

Ekspert bildirib ki, Mərkəzi və Şərqi Avropa ölkələri, o cümlədən Albaniya ilə ikitərəfli və çoxtərəfli əməkdaşlığın inkişafı ölkəmizin xarici siyasətinin vacib istiqamətlərindən biridir: "Nəzərə almaq lazımdır ki, Albaniyaya səfər həm də ilkdir və bu baxımdan da mühüm tarixi və siyasi əhmiyyəti mövcuddur. Səfərin məqsədi ölkələrimiz arasında yüksək səviyyədə olan əlaqələrin daha da inkişafına və qarşılıqlı maraq doğuran sahələrdə əməkdaşlığın gücləndirilməsinə töhfə verməkdir. İkitərəfli münasibətlərin gündəliyində olan aktual məsələlərin müzakirəsi məqsədilə Azərbaycan dövlət başçısının Albaniya Respublikasının Prezidenti Bayram Beqay və Baş nazir Edi Rama ilə görüşləri nəzərdə tutulur. Bu görüşlərdə iki ölkə münasibətlərini daha da irəliyə daşıyacaq vacib müzakirələr aparılır. Albaniya və Azərbaycan geostrateji mövqelərinə görə də Qərbdə maraqla qarşılanan ölkələr hesab edilir".

T.İsmayılov qeyd edib ki, Azərbaycan ilə Albaniya arasında diplomatik münasibətlər 1993-cü ilin sentyabrın 23-də qurulub: "Gələn il bu tarixin 30-ci ildönümü olacaq. Bu münasibətlə 2023-cü ildə Albaniyada "Azərbaycan həftə"sinin təşkil olunması planlaşdırılır. Albaniya rəhbərliyinin Azərbaycana daimi səfərləri gerçəkləşdirilib. Albaniya prezidentləri ölkəmizə 5 işgüzar səfər, baş nazirləri isə 2 rəsmi və 2 işgüzar səfər ediblər ki, bu, kifayət qədər önəmli göstəricidir. Aprelin 14-ü 2022-ci il tarixində isə Albaniyanın Baş naziri Edi Rama Bakıda Qlobal Forumda vacib mesajlar verdi. "Albaniya ATƏT-in sədri və hazırda BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü kimi hər zaman Azərbaycanı, həqiqəti və ölkənizin tarixi hüquqlarını dəstəkləyir və bunu etməyə davam edəcək" deyən baş nazir, həmçinin Azərbaycanın sülh təşəbbüslərini dəstəklədiyini söylədi. Bu gün TAP layihəsi Albaniya da daxil olmaqla bir çox ölkələr üçün yeni enerji nəfəsliyidir. Azərbaycan rəhbərliyi rəsmi Tirana ilə əlaqələrə hər zaman yüksək dəyər verib. Bunun bariz nümunəsi kimi cənab prezidentin apreldə dediyi sözlər xüsusi ilə vacibdir. Cənab prezident vurğuladı ki, İkinci Qarabağ müharibəsində Albaniya Azərbaycanın ərazi bütövlüyünə dəstək ifadə edib".

Ekspert vurğulayıb ki, bu günə qədər Azərbaycanla Albaniya arasında 8 vacib sənəd imzalanıb: "Enerji sahəsində əməkdaşlıq iqtisadi əlaqələrimizin əsas istiqamətidir. Azərbaycan ilə Albaniya Cənub Qaz Dəhlizinin sonuncu seqmenti olan Trans-Adriatik Boru Kəmərinin (TAP) həyata keçirilməsində uğurla əməkdaşlıq edib. Albaniyanın yüksək səviyyəli rəsmiləri (nazir və ya nazir müavini səviyyələrində) Cənub Qaz Dəhlizi Məşvərət Şurasının bütün iclaslarında iştirak edib və layihənin icrasına töhfə verib. Trans Adriatik Boru Kəməri (TAP) layihəsinin həyata keçirilməsi çərçivəsində Albaniya öz tranzit imkanlarından faydalanması ilə yanaşı, layihənin icrası Albaniyada məşğulluğun artmasına böyük töhfə verib. Layihə həmçinin, Albaniya üçün ÜDM və büdcə gəlirlərinin artımını təmin edir.

Ona görə də Albaniya cəmiyyətində və siyasi fikrində TAP-a böyük dəyər verilir. 2021-ci ildə Albaniya Azərbaycanın 79-cu xarici ticarət tərəfdaşı olub. Həmin ildə ölkələrimiz arasında ticarət dövriyyəsinin həcmi 4,95 mln. ABŞ dolları, o cümlədən idxalın həcmi 0,66 mln. ABŞ dolları, ixracın həcmi 4,29 mln. ABŞ dolları təşkil etmiş, xarici ticarət saldosu isə müsbət 3,63 mln olmuşdur".

**Nihat Müzəffər**

# Fransa Senatı Azərbaycana qarşı bədnam qətnamə qəbul edib

## İclasda iştirak edən 296 nəfərdən 295-i layihənin lehinə, 1 nəfər əleyhinə səs verib



**Fransa Senatı Azərbaycana qarşı sanksiyaları nəzərdə tutan bədnam qətnamə qəbul edib.**

APA xəbər verir ki, Senat Fransa Konstitusiyasının 34-1-ci maddəsini rəhbər tutaraq Azərbaycana qarşı sanksiya tətbiq edilməsinə dair qanun layihəsini müzakirəyə çıxarıb və qəbul edib.

İclasda iştirak edən 296 nəfərdən 295-i layihənin lehinə, 1 nəfər əleyhinə səs verib.

Qətnamə layihəsində "Azərbaycanın Ermənistan ərazisindən və Laçın dəhlizindən çəkilməsi" tələb olunub.

Layihə müəllifləri "Azərbaycan və onun tərəfdaşlarının Ermənistanın suverenliyi və ərazi bütövlüyünə hörmət etməsini, həmçinin bütün erməni hərbi əsirlərin qaytarılmasını" tələb edirlər.

"Azərbaycan hökumətindən 4 yanvar 1969-cu il tarixli hər növ Diskriminasiyanı Qadağan edən Konvensiyaya uyğun olaraq erməni əhalisinin, erməni dini və mədəni mirasının mühafizəsi üçün tədbir görmək" tələb edilir.

Bununla yanaşı, Fransa hökumətinə "Dağlıq Qarabağda humanitar büro açmaq" təklif edilir.

Təkliflər arsında qondarma "Dağlıq Qarabağ Respublikası"nın müstəqilliyinin tanınması da yer alır.

Eyni zamanda, Fransa hökumətindən Qafqazda sülhün bərqərar olması üçün Azərbaycanla diplomatik prosesə başlamaq tələb olunur.

Ermənistan-Azərbaycan sərhədində beynəlxalq statuslu sülhməramlı qüvvələrin yerləşdirilməsi də təkliflər arasında var.

Qeyd edək ki, Fransa uzun müddətdir ki, Ermənistanın işğalçılıq siyasətini dəstəkləyir və onu pozuculuq fəaliyyətində həvəsləndirir.

# Türkiyə qisasa hazırlaşır

## Terrorun arxasında hansı güc olursa olsun, mütləq cavabını alacaq

**Türkiyənin İstanbul şəhərində noyabrın 13-də törədilən terror aktı bir neçə ay öncədən planlaşdırılıb. Bu informasiya PKK terror təşkilatının liderlərindən biri Duran Kalkanın təşkilatın televiziyasına müsahibəsində ortaya çıxıb. Terrorçuların lideri heç kəsin gözləmədiyi anda və yerdə hücumun olacağını bildirib.**

Hücumun təkcə cəbhələrdə deyil, Türkiyənin hər yerində olacağını deyib. O, hər yerin döyüş meydanı olduğunu və xüsusilə, noyabr ayında terror aktı törədəcəklərinə işarə edib. Türkiyə polisi İstanbulda terror aktı planlaşdıran şəxsi saxlayıb. "Hürriyət" qəzeti məlumat yayıb ki, Taksimdəki terror hücumunu planlaşdıran daha bir terrorçu - Əmmar Carkas da ələ keçirilib.

### "Terrorçuların əlaqəsini Əsənlərdə birlikdə qaldıqları şəxs təmin edib"

Terror aktını törədən Əhləm əl-Bəşir və digər şübhəlilərlə bağlı yeni təfərrüat üzə çıxıb. Terrorçu Bəşirin təxminən bir il əvvəl PKK/YPG terror təşkilatı tərkibində kəşfiyyatçı kimi təlimlərə başladığı müəyyən edilib. Əhləm əl-Bəşir 4 ay əvvəl "B" adlı terrorçu ilə Afrindən qaçaq yolla Türkiyəyə daxil olub. Əsənlərdə yaşayan Suriya əsilli başqa bir terrorçunun yanına gələn Əhləm əl-Bəşir və "B" kim olduqları məlum olmasın deyə özlərini ər-arvad kimi göstərməyə başlayıblar. Cütlük kamuflyaj etmək üçün tekstil sexində də işə düzəlib. Terrorçular bu müddət ərzində türk kəşfiyyatına yaxalanmamaq üçün əmr aldıqları Eyn əl-Ərəbdəki terrorçularla heç bir rəqəmsal mühitdə əlaqə saxlamayıblar. Terrorçuların Eyn əl-Ərəblə əlaqəsini Əsənlərdə birlikdə qaldıqları şəxs təmin edib. Hadisə günü "B" adlı terrorçudan bomba yüklü paketi alan Əhləm əl-Bəşir diqqəti cəlb etməmək üçün 45 dəqiqə bombanı qoyduğu skamyada oturub. Saatlı bombanın partlamasına az qalmış skamyadan qalxaraq hadisə yerindən qaçan əl-Bəşir əvvəlcə taksi ilə Əsənlərdə qaldığı ünvana gedib. Buradakı evdəki qızıl və pulları götürdükdən sonra Küçükçəkməcəyə gedib.

Ankara İstanbul teraktından sonra Suriyanın şimalındakı PKK terrorçularına qarşı daha bir xüsusi əməliyyat keçirməyi planlaşdırır. Bu barədə "Röyters" adının çəkilməsini istəməyən türkiyəli yüksək səviyyəli məmura istinadla məlumat yayıb. Mənbənin sözlərinə görə, hazırda İraqda PKK terrorçularına qarşı əməliyyat davam edir: "Onun başa çatmasından sonra bizim Suriyada konkret hədəflərimiz yaranacaq. PKK və ya İŞİD-in Türkiyəyə qarşı təhdidləri qəbuledilməzdir. Ankara bu və ya digər şəkildə cənub sərhədi boyunca təhlükələri aradan qaldıracaq".



### Terrorun arxasında ABŞ izi...

Türkiyə-Azərbaycan parlamentlərarası dostluq qrupunun sədri, hakim Ədalət və İnkişaf Partiyasını (AKP) təmsil edən deputat Şamil Ayrım bildirib ki, terror aktının törədilməsində ABŞ-ın ittiham olunması səbəbsiz deyil. Onun sözlərinə görə, heç kim Türkiyəni bölə bilməyəcək: "Biz ilk dəfə deyil ki, belə halla qarşı-qarşıyayıq, əvvəllər də Türkiyəni bölməyə çalışan qüvvələr olub, indi də var. Təbii ki, xainlərin arxasında kimlər dayanıbsa, cavab verəcək. Xainlər böyük dövlətlər olmadan belə addım ata bilməzlər. Yəqin ki, Daxili işlər naziri Süleyman Soylunun əlində terrorun kimlər tərəfindən törədilməsi ilə bağlı sübutlar mövcuddur. Bu səbəbdən ABŞ-la bağlı açıqlama verildi". Tanınmış rusiyalı politoloq, Siyasi Araşdırmalar Mərkəzinin direktoru Sergey Markov da bildirib ki, İstanbuldakı terror aktının arxasında məhz ABŞ dayanır. Əsas məqsəd Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanı hakimiyyətdən uzaqlaşdırmaqdır: "2023-cı ilin iyun ayında Türkiyədə prezident və parlament seçkiləri keçiriləcək. Ölkə Ərdoğanın tərəfdaşları ilə qərbyönümlü kürdlər arasında ciddi şəkildə yarıya bölünüb. Kürdlərin səsləri bu seçkilərdə həlledici rol oynaya bilər. ABŞ isə terror aktları ilə Ankaranı kürdlərə qarşı müharibəyə başlamağa təhrik etmək və bununla da bütün kürdləri Ərdoğanın düşməni etmək istəyir. Belə hal baş versə, kürdlər Ərdoğana, sözsüz ki, səs verməyəcək. Həmçinin ABŞ onu göstərmək istəyir ki, guya, Ərdoğan ölkədə təhlükəsizliyi təmin edə bilmir".

### "Bunu Türkiyəmizə bağışlamaq istəmirlər"

**Politoloq Zaur İbrahimli deyib ki, İstanbuldakı terror aktı qardaş Türkiyənin 6 il əvvəl 2016-cl ildə 15 iyul dövlət çevrilişinə cəhddən sonra yürütdüyü müstəqil siyasətə, Ankaranın müstəqil siyasətinin yaratdığı yeni geosiyasi reallığa, türk dövlətləri coğrafiyasında inteqrasiyanın yeni mərhələsinə start verilməsinə hücumdur:** "Qısası, Türkiyəmizə buxovlardan azad olmağına, dik durmağına, əsarəti qəbul etmədiyinə görə əclafcasına zərbədir. Türkiyə son 6 ildə yenidən sanki, ötən əsrin 20-30-cu illərinə qayıdaraq xarici ideoloji təsirlərdən azad, milli qüruruna, kimliyinə, möhtəşəm tarixinə söykənərək, türk yurdlarını bağrına basaraq irəli yürüməyə başladı. Bunu Türkiyəmizə bağışlmaq istəmirlər. Lakin son 900 ilin tarixi də sübut edir ki, türk harda varsa ora dünyanın mərkəzi olacaq, düşmənlər əfv diləyəcək".

### "Türkiyənin reaksiyası çox təbiidir"

**Siyasi şərhçi Turan Rzayev bildirib ki, hadisədən sonra Türkiyə tərəfi təkcə PKK-nın yox, PYD-nin də günahkar olduğunu açıqladı və ABŞ-ın başsağlığını qəbul etmədi:** "Bu, təbii haldır və başadüşüləndir. Məsələ ondan ibarətdir ki, PKK və PYD-ni ABŞ tərəfindən maliyyələşdirilir və müdafiə edilir. Türkiyə uzun müddətdir ki, Suriyada hərbi əməliyyatlara başlamaq istəsə də, PYD-nin nüfuz dairəsində olan Suriyanın şimal-şərqindəki Deyr əz-Zor bölgəsinə girməyə ABŞ icazə vermir. Türkiyə dəfələrlə ABŞ-a terror təhlükəsi ilə bağlı müraciət edərək maliyyə dəstəyini kəsməsini istəsə də, rəsmi Vaşinqton Ankaranın Yaxın Şərqdə terror təşkilatı kimi tanıdığı silahlı qruplaşmalara pul ayırmağı dayandırmayıb. Əksinə, PYD-nin müxtariyyəti üçün əlindən gələn dəstəyi göstərir. Bu baxımdan Türkiyənin reaksiyası çox təbiidir".

### "Təşkilatı ABŞ maliyyələşdirirsə, onda terrorun sifarişçisi də Vaşinqtondur"

*Analitik əlavə edib ki, törədilən terror aktında PKK və PYD faktorunun olması bir neçə istiqamətlərdə özünü göstərir:* "PKK Türkiyənin daxili problemidir. PYD isə terrorla mübarizədəki əsas prioritetlərindəndir. Çünki PKK-nı dəstəkləyən ünsürlərdən biri də Suriyada fəaliyyət göstərən PYD-dir. Faktiki olaraq bunları eyni təşkilat kimi saymaq mümkündür. Fərq yalnız birinin Türkiyə, digərinin isə Suriya qanadı olmasındadır. ABŞ-ın bu iki təşkilatı maliyyələşdirdiyi isə heç kimə sirr deyil. Prinsip etibarilə Türkiyənin yanaşması doğrudur. Çünki bu təşkilatları ABŞ maliyyələşdirirsə, onda terrorun sifarişçisi də məhz Vaşinqtondur".

**İsmayıl Qocayev**

# Əksər məscidlərdə İranın təsiri qalmaqdadır

## Casus şəbəkəsinin tam təmizlənməsi uzun zaman alacaq



**”Dövlət Təhlükəsizlik Xidmətinin İran casus şəbəkəsinin ifşası ilə bağlı keçirdiyi əməliyyatları alqışlayıram. Bu əməliyyatlar davamlı və daha geniş olmalıdır. Çünki İranın ölkəmizdə kök salmış geniş təsir şəbəkəsi var”. Bu sözləri Milli Cəbhə Partiyasının sədr müavini, ilahiyyatçı Tural İrfan deyib. Partiya təmsilçisi qeyd edib ki, casus şəbəkəsi qeyri-dini sektorda da mövcuddur:**

”Ocaq Nejad uzun müddət ölkəmizdə İran şəbəkəsini kurasiya edirdi. Demək olar ki, əksər təşkilat, birlik, icmalarda İran təsirinə düşmüş adamlar var. İran casus şəbəkəsinin tam təmizlənməsi və təsirlərinin aradan qalxması uzun zaman tələb edəcək. Çünki İranın ali dini liderinə, oradakı siyasi müctəhidlərə təqlid edən on minlərlə şiə müsəlman var. Onların beyninin təmizlənməsi lazımdır. 100-200 casusu tutmaqla iş bitmir. Əksər məscidlərdə İran təsiri qalmaqdadır. Bu yaxınlarda şəhərdə bir məscidin axundunu işdən çıxarmışdılar, onun adamları toplaşıb etiraz edirdilər, dirənirdilər. Belə şeylər məhz İranın təhriki ilə baş verir. İrana işləyən casus şəbəkəsi zənnimcə həddən çoxdur. İrandan təhsil almış 10 nəfərdən bəlkə də hamısının İrana xidmət edən, onların maraqlarına işləyən adam olmasına şübhə yoxdur. Çünki orada din adı altında hamıya siyasi, ideoloji dərs verirlər. Ölkədə İrana xidmət edən, onların maraqlarını burada qoruyan, təbliğ edən kifayət qədər adam var”.

T.İrfan vurğulayıb ki, həbs edilən şəxslərdən biri Qumda ideoloji-siyasi təhsil alıb. İran xüsusi xidmət orqanlarının agenti olub. Sonra dəniz donanmasında kapitan işləyib: ”Belə adamı həmin vəzifəyə kimlər gətirib? Niyə yoxlanmayıb? Məsələnin ən qorxulu tərəfi budur. İran əleyhinə bir kəlmə tənqidi fikir deyən kimi üstümüzə yüz adam düşür sosial şəbəkədə. Əksəriyyəti də öz məscidlərimizdəki axundların söhbətlərinə qulaq asanlardır. İran ölkəmizdə öz adamları vasitəsi ilə hər şeydən öncə məzhəb ixtilafını körükləyir. Orada oxuyan, şiə pərdəsi altında danışan ruhanilərin 90 faizi ancaq ixtilaflı mövzulara girir, sünni - şiə fərqi yaradır. Tarixi ziddiyyətləri şişirdir və bilavasitə İrana xidmət edirlər. Çünki İran Türkiyə ilə Azərbaycan arasında məzhəb ayrı-seçkiliyi yaratmaq amalı güdür. Dəfələrlə mənim özümü hədələyiblər, ölümlə təhdid ediblər. Rəhmətlik Ziya Bünyadovu, Rafiq Tağını da məhz bu şəbəkənin sayəsində qətl etdilər. Çox ciddi təhlükədir İran şəbəkəsi”.

**İlahiyyatçı qeyd edib ki, ən çətini də odur ki, ”təqiyyə” deyilən özünü gizlətmə prinsipləri ilə hərəkət edirlər:** ”İrandan mesaj, tapşırıq alana kimi fikirlərini gizlədir, əqidələrini gizlədir, üzə çıxmırlar. Hətta ”vətənpərvər”, ”millətçi” maskası geyirlər ki, iz azdırsınlar. Çünki beyinləri zəhərlənib. Vaxtilə din sahəsində çox boşluqlar buraxıldı. Demək olar ki, əksər məscidlərdə İran təhsilli adamlar təyinat aldı. Məşhəd ziyarətinə gedənləri təsir altına saldılar. Hətta qadınlardan ibadət də qruplar var. Çox ciddi və köklü əməliyyatlar olmalıdır. İran müctəhidlərinə təqlid edən, yəni onlara tabe olan hər bir kəs Azərbaycan üçün basdırılmış minadır. Bunların hamısının qarşısı alınmalıdır”.

**İsmayıl Qocayev**



**”Avropa İttifaqının 5 min nəfərlik çevik reaksiya qüvvələri 2023-cü ilə yaradılmalı və işə salınmalıdır”. Bunu Aİ-nin xarici siyasət xidmətinin rəhbəri Jozep Borrel deyib.**

# NATO-ya alternativ güc yaradılır

## Avropa İttifaqı siyasi və iqtisadi birlikdən əlavə həm də hərbi təşkilata çevrilmək niyyətindədir

Onun sözlərinə görə, Brüsseldə Aİ müdafiə nazirlərinin iclasında yaradılacaq hərbi birləşmənin fəaliyyətinin üsulları müzakirə ediləcək.

”Avropa İttifaqının çevik reaksiya qüvvələri 2023-cü ildə operativ fəaliyyətə hazır vəziyyətdə olmalıdır”.

Qeyd edək ki, Aİ üzvü ölkələrin rəhbər şəxsləri tərəfindən bu təklif illərdir səsləndirilir. Bu dəfə isə Avropa İttifaqının ordu yaratmaq məsələsi konkret olaraq gündəmdədir. Avropa İttifaqı nə qədər çalışsa da, neçə illərdir ki, bu barədə fikirlər ortaya qoysa da, ortada bir nəticə yoxdur. Çünki Avropa İttifaqının vahid ordusunu yaratmaq üçün həmin dövlətlərin yalnız iqtisadi yox, həm də hərbi və geosiyasi maraqları üst-üstə düşməlidir.

Lakin son vaxtlar Avropa Birliyi ölkələrinin bir çox məsələlər üzrə yürütdüyü beynəlxalq siyasətin ABŞ-ın xarici siyasəti ilə üst-üstə düşməməsi, müttəfiqlik tələblərinin pozulması fonunda münasibətlər xeyli gərginləşib.

Siyasi şərhçi Əziz Əlibəylinin ”Şərq”ə açıqlamasına görə, xüsusən də Rusiya- Ukrayna müharibəsindən sonra Avropa İttifaqına üzv olan ölkələr gördülər ki, Birliyin hərbi müdafiəsi yoxdur: ”Məhz özünümüdafiə məqsədi ilə İttifaqa üzv olan ölkələrin hərbi birləşmələrindən ibarət vahid ordu yaratmaq niyyətinə düşdülər. Bu isə mümkün olmadı. Buna qarşı olan qüvvələrdən biri Rusiya olsa da, ən güclü rəqib Amerika Birləşmiş Ştatlarıdır. Avropa ölkələrinin böyük əksəriyyətində ABŞ-ın hərbi bazaları var. Hərbi məsələlərlə bağlı bütün qərarları da onlar özləri verir. Bütün bunlara rəğmən Avropa İttifaqının NATO-ya rəqib hərbi birləşmə yaratması real məsələdir. Ötən ay baş tutan Praqa sammitində də biz şahidi olduq ki, Avropa İttifaqı siyasi və iqtisadi birlikdən əlavə həm də hərbi təşkilata çevrilmək niyyətindədir. Xüsusən də Almaniya və Fransanın bu məsələdə maraqları daha böyükdür. Hərbi silahlar baxımından, silahlı qüvvələrin yaranması baxımından əsas rol oynaya biləcək əsas dövlətlər də məhz Almaniya və Fransadır”.

**Şəymən**



# Putin iqtidarı daxili auditoriyada xeyli nüfuz itirəcək

## Tural Abbaslı: ”Bu da onların hakimiyyətinin laxlamasına, hətta sonlanmasına yol aça bilər”

**Rusiya qoşunları Xersonu tərk edib və Dnepr çayının sol sahilinə çəkiliblər. Bu barədə ”Daily Mail” yazıb. Məqalədə qeyd edilib ki, əvvəllər Moskva Beynəlxalq Əlaqələr İnstitutunun əməkdaşı olmuş və Kremllə kontaktlarını saxlaya bilmiş Valeri Solovyovun verdiyi məlumata görə, rus qoşunlarının Xersondan geri çəkilməsindən sonra Moskvaya indiyədək işğal etdikləri əraziləri dərhal tərk etmək şərtilə təslim təklifi verilib.**

Krım istisna olaraq qalır və 2029-cu ilədək hərbsizləşdirilmiş zona elan edilir. Eyni zamanda Rusiya və Belorus sərhəddi boyunca 60 km enə malik zolaq da hərbsizləşdirilmiş zona elan edilir.

Bunun müqabilində Ukraynanın 7 il ərzində NATO-ya üzv qəbulunun dondurulmasına təminat verilir. Həmçinin Kreml rəhbərliyinin müharibə cinayətlərinə görə məsuliyyətə cəlb edilməsi məsələsi aradan götürülür və onlara rəhbərlikdə qalmaq imkanı yaradılır. Rusiya artıq uzun müddətdir ki, Kiyevin sülh danışıqlarına razı olmadığını deyir. Ukrayna Prezidenti Zelenski isə sülh danışıqlarına Rusiya qoşunları ölkədən tamamilə çıxacağı halda və növbəti prezidentlə gedilməsinin mümkünlüyünü söyləyib.

Ukrayna-Rusiya qarşıdurması ilə bağlı ”Şərq”ə danışan AĞ Partiya sədri Tural Abbaslının qənaətincə, rusların Xersondan geri çəkilməsindən sonra müxtəlif variantlar gündəmə gətirilir: ”Rus qoşunlarının Xersondan çıxması Rusiyanın işğal etdiyi ərazilərdən tamamilə çıxması ilə nəticələnməyəcək.

Rusiya Ukraynanın ərazilərini təkcə işğal yox, həm də ilhaq edib.

Artıq Rusiya həmin əraziləri öz torpaqlarının tərkib hissəsi sayır. Sözügedən ərazilərdən geri çəkilsə, öz torpaqlarından imtina etmiş olacaq.

Əslinə qalsa, Rusiyanın torpağı deyil. Lakin qoşunlarını geri çəksə, lider V.Putin iqtidarı daxili auditoriyada xeyli nüfuz itirəcək. Bu da onların hakimiyyətinin laxlamasına, hətta sonlanmasına yol aça bilər. Dövlət başçısı V.Putinin öz siyasi və şəxsi xarakteri həmin ərazilərdən tamamilə geri çəkilməyə imkan verməyəcək. Bu, inandırıcı deyil”.

**Aygün Tahir**

# Parlamentli idarəetmə sistemi dəyişməyəcək

## Müxalif qüvvələrin Paşinyana qarşı təzyiqləri əbəsdir



**Ermənistanın ”Past” nəşri yazıb ki, Baş nazir Nikol Paşinyan 2023-cü ilin mart-aprel aylarında Konstitusiyaya dəyişikliklərlə bağlı referendum keçirmək istəyir.**

Bildirilib ki, Paşinyan aidiyyəti qurumlara referenduma hazırlıq işlərinin başlaması ilə bağlı tapşırıq verib. Qəzetin məlumatına görə, referendumun konkret olaraq nə vaxt keçiriləcəyi və hansı dəyişikliklərin mahiyyəti hələlik məlum deyil: ”Bəzi dairələr yarı-prezident idarəetmə formasına keçilməsində israr etsələr də, Nikol Paşinyan belə qərara gəlib ki, Ermənistanda parlament sistemi fəaliyyətini davam etdirməlidir”. Konstitusiya dəyişikliklərində Türkiyəyə qarşı ərazi iddialarının da aradan qaldırılacağı deyilir. Qeyd edək ki, 2018-ci ilədək Ermənistanda prezident üsul-idarəsi olub. Həmin il ölkədə Konstitusiya dəyişiklikləri üzrə referendum keçirilib və parlament idarəçilik sisteminə keçilib. Vəhdət Partiyasının sədr müavini Vasif Əfəndiyev ”Şərq”ə deyib ki, Paşinyanın sülh müqviləsinin bağlanması mövzusunda təzadlı bəyanatlar və təxribatçı hərəkətlər etməsinə baxmayaraq, proses sülh sazişinin bağlanmasına doğru gedir: ”Ermənistan tərəfi anlayır ki, Ermənistanın müqavimətindən və ya münasibətindən asılı olmayaraq, 2020-ci ilin noyabr sazişi istənilən halda yerinə yetiriləcək. Eyni zamanda Türkiyə ilə münasibətlərin normallaşması Ermənistan üçün həyati məsələdir. Bunun gerçəkləşməsi üçün də Ermənistan rəsmi olaraq konstitusiyada Türkiyəyə qarşı təsbit olunmuş ərazi iddiasından imtina etmək məcburiyyətindədir. Ermənistanda yeni tətbiq olunmuş parlamentli idarəetmə sistemi mükəmməl deyil. Sistemin daha da möhkəmləndirilməsi üçün əlavə qanunların qəbul olunmasına ehtiyac var. Müxalif qüvvələrin yenidən prezidentlik institutuna qayıtmaq cəhdləri əbəsdir. Ümumiyyətlə, parlamentli idarəetmə sistemi müasir dövrün tələbidir”.

**İsmayıl**

# Sonun başlanğıcı...

## Rusiya müdafiə qabiliyyətini itirir

**Ukrayna Prezidenti V.Zelenski ”G 20” zirvə toplantısında Qərbə videomüraciətlə çağırış edib. Zelenski deyib ki, Rusiyanın Ukraynaya qarşı müharibəsini dayandırmağın vaxtı çatıb. Bildirib ki, Rusiyanın öz qüvvələrini artırmasına imkan verməyəcəklər: ”Əminəm ki, artıq zamanıdır, Rusiyanın müharibəsi dayandırılmalıdır”.**

”Blumberq” agentliyinin məqaləsində bildirilib ki, Moskvanın Rusiyanın Ukraynaya müdaxiləsini müharibə adlandırmaq istəməməsi ”G 20” sammitinin ümumi gedişatına əngəl törədir. Qeyd olunub ki, bu məsələ Rusiya ilə Ukraynanın tərəfdaşları arasında qarşıdurmaya səbəb ola bilər: ”G20 liderlərinin görüşü ilk dəfə birgə bəyanat olmadan başa çata bilər. Pis əlamət Rusiya və ABŞ-ın Kambocada keçirilən çoxtərəfli sammitdən sonra birgə bəyanatla bağlı razılığa gələ bilməməsi idi. Sonra Rusiyanın Xarici işlər naziri Sergey Lavrov ABŞ və müttəfiqlərini ittiham etdi. Rusiya Ukraynaya müdaxiləni ”xüsusi hərbi əməliyyat” adlandırmaqda israrlıdır və özü Ukraynadakı vəziyyəti müharibə kimi qələmə verməyi cinayət hesab edib. Diplomatların fikrincə, ”19+1” formatında bəyanat mümkündür ki, burada ”G 20”-nin əksəriyyəti ümumi sənəd imzalayacaq. Rusiya isə öz sənədini verəcək və ya ev sahibi ölkənin İndoneziyada hazırladığı müzakirələrin xülasəsini təqdim edəcək.

### Ukraynadan ABŞ-a: Kompromisə getməyəcəyik!

Ukrayna Silahlı Qüvvələrinin baş komandanı Valeri Zalujnı ABŞ-ın Birləşmiş Qərargah Rəisləri Komitəsinin rəhbəri, general Mark Milli ilə telefon danışığı zamanı deyib ki, Kiyev heç bir danışıqları, razılaşmaları və ya kompromis həll yollarını qəbul etməyəcək: ”Əmin etdim ki, gücümüz çatana qədər mübarizə aparacağıq. Məqsədimiz bütün Ukrayna torpaqlarını rus işğalından azad etməkdir. Biz heç bir şəraitdə bu yolda dayanmayacağıq. Ukrayna ordusu heç bir danışıqları, razılaşmaları və ya kompromis həll yollarını qəbul etməyəcək. Danışıqlar üçün yalnız bir şərt var - Rusiya işğal etdiyi bütün əraziləri tərk etməlidir”.

### Şallenberq: Vaxtı gələndə, Zelenski qərar verəcək!

Avstriyanın Xarici işlər naziri Aleksander Şallenberq deyib ki, hazırda Ukrayna və Rusiya arasında sülh danışıqları üçün imkanlar görünmür. Onun sözlərinə görə, bu danışıqlara başlamaq qərarı Prezident Vladimir Zelenski tərəfindən lazımi vaxtda veriləcək: ”Biz bu qapını hər zaman açıq saxlamalıyıq, çünki son nəticədə sabit sülhə yalnız danışıqlar masası arxasında nail olmaq olar. Bununla belə, hesab edirəm ki, bunun vaxtı çatmayıb. Vaxtı gələndə Prezident Zelenski bu barədə deməlidir”.



**Ukrayna müharibəsinin nəticələri Qərbin Kiyevə dəstəyindən asılı olaraq qalmaqdadır**

### ”Onlarsız danışığa getmək fikrində deyilik”

ABŞ Prezidenti Co Bayden deyib ki, Ukraynasız heç bir danışıqlarda iştirak edilməyəcək: ”Açıq şəkildə bildirdim ki, Ukrayna xalqına özünü müdafiə etmək imkanı verməyə davam edəcəyik. Onlarsız hansısa danışığa getmək fikrində deyilik. Ukraynasız heç nə edən deyilik, bu, Ukraynanın qərardır”.

**Siyasi şərhçi Aqşin Kərimov ”Şərq”ə deyib ki, Rusiya-Ukrayna müharibəsinin döyüş meydanında yaranan mənzərəsi Moskvanı uğursuzluqlar girdabı səmtinə sürüyür. Analitik vurğulayıb ki, bir müddət əvvəl işğal edilmiş Xerson vilayətini Rusiyanın ərazi subyekti elan edən fərman imzalayan Vladimir Putin indi qoşunlarının Dnepr çayının sağ sahilindən çıxarılıb sol sahilə dislokasiyasına şahidlik edir:** ”Bununla da Rusiyanın Odessa və Nikolayevi tutmaq planları taktiki olaraq iflasa uğrayır. Ukrayna Dneprin sağ sahilində mövqelərini möhkəmkəmləndirməklə, sol sahili də vurub Rusiyanın oradan da çıxarılması üçün şans qazanır. Azov dənizinə çıxışı bərpa etmək yolunda inamla irəliləmək imkanları əldə edir. Rusiyanın Krımdan gələn təchizat xətlərini artilleriya hücumlarına qarşı həssaslaşdırır. Rusiyanın hazırda üzləşdiyi vəziyyət Ukrayna cəbhəsi boyunca aşağı-yuxarı eyni durumdadır. Rus qoşunları artıq nəinki irəliləyişə nail olmaq potensialından məhrum olur, həm də işğal zonasında müdafiə olunmaq qabiliyyətini itirir. Rusiya ən zəruri müdafiə istehkamlarını Krım, Donetsk, Luqansk bölgələrində qurur. Putin Xarkov, ardınca isə Xersondakı itkiləri kompensasiya etmək üçün Donetsk və Luqansk vilayətlərinin işğalını başa çatdırmaq üçün ləngiyən səylərini sürətləndirməyə çalışacaq. Elə buna görədir ki, son günlər Rusiya həmin vilayətlər üzrə hücumlar həyata keçirir, lakin nəticəyə nail ola bilmir”.

### ”Qışın gəlişini Rusiya ”toy-bayram” kimi qeyd edə bilər”

**Ekspertə görə, Ukraynanın Qərbdən aldığı bol silahlar və əməliyyat planlarının NATO standartlarına uyğun hazırlanması Moskvanın rastlaşdığı çətinliklər zəncirinə əlavə halqalar əlavə edəcək:** ”Ukraynanın qətiyyətini əsasən ABŞ-Britaniya ikilisinin güclü dəstəyi müşayiət edir. Bunun sayəsində möhtəşəm də olmasa, uğurlu bir plan həyata keçirilir. Ancaq münaqişə hələ bitməyib və Rusiyanın bundan sonra hansı senarilərə gedəcəyi bəlli deyil. Rusiya elə bir şərait bərqərar etmək istəyir ki, Qərb diplomatiyası Ukraynanı arxa plana ataraq Moskvanın şərtləri ilə uzlaşan danışıqlar masası qursun. Moskvanın ikinci planı isə mövcud durumu donmuş münaqişə formasına salmaqdır. Hərçənd, Ukraynanın uğurlu əks-hücum əməliyyatları Rusiyanın hədələrinə və intensiv raket zərbələrinə baxmayaraq Kremlin istədiyinə çatmasına əngəllər yaradır. Moskvanın nüvə silahı olmadan əlində olan ən güclü aləti iqtisadi silahlardır. Lakin artıq Qərb Kremlin qaz şantajlarını boynubükük qarşılamaq mövqeyində də deyil. Əllərindəki fürsətlərin bir-bir çıxdığını görən Rusiyanın başqa planı digər regionlar üzrə eskalasiya riski yaratmaqdır ki, Ukraynadakı müharibənin yorğunluğunu yaşayan Qərbin buna adekvat cavab verəcəyi suallar altına düşür. Buna görə də Qərb dəstəkçiləri Moskvanın istər Ukrayna üzrə, istərsə də digər bölgələr üzrə strateji planlarının Rusiya üçün uğursuzluq ola biləcəyini proqnozlaşdırmaqda tələsmir. Ukraynadakı müharibənin nəticələri Qərbin Kiyevə dəstəyinin hansı limitə qədər davam edəcəyindən asılı olaraq qalmaqdadır”.

**İsmayıl**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

## Elmi-kütləvi, mədəni-maarif, təhsil proqramlarının hazırlanması




# Səbəblər çoxdur

## Azərbaycan universitetləri dünya reytinqlərində yer ala bilmir

**Osman Gündüz:** "Universitetlərimizin beynəlxalq reytinqlərdə irəliləməsi üçün daha çox işi hökumət görməlidir"

**Kamran Əsədov:** "Azərbaycanda professor, müəllim heyəti əsasən Boloniya sistemindən xəbərsizdir, bu sistemin mahiyyətini anlamır"

**Beynəlxalq təhsil və elm aləmində reytinq müəyyənləşdirən bir neçə akademik qurum var. Həmin qurumlar oturuşmuş kriteriyaları və qiymətləndirmə mexanizmi ilə hər il dünya universitetlərinin beynəlxalq reytinq sıralamasını aparır.**

Dünyada universitetlərin reytinqinin müəyyənləşdirilməsi sahəsində tanınmış təşkilatlardan biri "QS" - Quacquarelli Symonds təşkilatıdır. "QS" reytinq cədvəli universitetin dünyada nüfuzu, məzunların işlə təmin olunması, beynəlxalq əlaqələr, müəllim-tələbə nisbəti, elmi nəşrlər, xarici tələbə və müəllimlərin faizi kimi meyarlara görə formalaşdırılır. Böyük Britaniyanın "Times Higher Education" jurnalı, Çinin Şanxay reytinq cədvəli də etibarlı mənbələrdən sayılır. Universitetlərimizin tanınmış reytinqlərdə nəzərəçarpan yer tutması isə bir qədər müşkül olub.

Bəs, Azərbaycan universitetləri niyə dünya reytinqlərində yer ala bilmir?

Elm və Təhsil Nazirliyi yanında İctimai Şuranın üzvü, Azərbaycan Gənc Alim, Doktorant və Magistrlər Cəmiyyətinin sədri, fəlsəfə doktoru İlqar Orucovun Trend-ə açıqlamasına görə, dünyada bir çox reytinqlər mövcuddur. Bu reytinqlərin hansının ədalətli olması bir çox hallarda mübahisə doğurur: "Bütün hallarda Azərbaycan universitetləri bu reytinqlərdə yer almaqla bağlı ciddi şəkildə düşünməldirlər. Bu reytinqlərdə yer almaq üçün bir çox parametrlər mövcuddur və bu parametrlərə əməl olunması bizim universitetlərin inkişafında müsbət yer ala bilər. Universitetdə təhsil alan tələbələr, tədqiqatların keyfiyyəti, çalışan xarici müəllimlərin sayı bu parametrlərə daxildir. Son illərdə Azərbaycanda bu istiqamətdə müəyyən işlər görülür.

Bütövlükdə, hər bir universitetin bu istiqamətdə strategiyası olmalıdır. Qarşılarına müəyyən bir hədəf qoymalıdırlar və o hədəflərə çatmaq üçün işlər görülməlidir. Bu, xeyli zaman aparan bir prosesdir".

Milli Məclisin deputatı Ceyhun Məmmədov bəzi universitetlərin beynəlxalq reytinq sisteminə maraq göstərmədiklərini qeyd edib: "İlk olaraq sual yaranır ki, universitetlərimiz bu məsələdə nə dərəcədə maraqlıdırlar. Bəzi universitetlər bu istiqamətdə müəyyən işlər görür, amma bir sıra universitetlər buna maraq göstərmir. Məsələn, hazırda bəzi bölgə universitetləri inkişaf üçün çalışır, yenilikçi addımlar atır. Əsas məsələlərdən biri də tədrisin keyfiyyətidir, universitetlərimizdə məzmun və keyfiyyət məsələsinə diqqət etməliyik. Həmçinin ali təhsil müəssisələrimizin beynəlxalq standartlara uyğunlaşdırılmasına çalışmalıyıq".

Deputat qeyd edilən məsələ ilə bağlı nazirlik yanında komissiyanın yaradılmasını təklif edib: "Düşünürəm ki, universitetlərimizin beynəlxalq qiymətləndirmələrdə iştirakı ilə bağlı Elm və Təhsil Nazirliyi yanında komissiya yaradılmalıdır. Bu komissiyada universitetlərin beynəlxalq əməkdaşlıq şöbələrinin nümayəndələrilə müzakirələr aparılmalıdır. Bu komissiyanın fəaliyyəti qeyd edilən istiqamətdə lazımi addımların atılması üçün vacibdir. Hazırda Ermənistanla bağlı bir çox müzakirələr təşkil edilir. Onlar bu məsələ ilə bağlı kifayət qədər işlər görürlər. Erməni diasporu təhsil mövzusuna da xüsusi diqqət edir. Biz də universitetlərimizin beynəlxalq reytinq sıralamalarında yaxşı mövqelərdə qərarlaşması üçün lazımi addımları atmalıyıq".

**Azərbaycan İnternet Forumunun Prezidenti Osman Gündüz qonşu ölkələrin ali təhsildəki irəliləyişlərinə diqqət çəkərək, rəqabət mühitinin çətinliyini vurğulayıb:** "Reytinq cədvəlləri ali təhsildə rəqabət mühiti formalaşdırır. Bu mühitdə çox güclü xarici ali təhsil müəssisələri var. Məsələn, sadəcə, Eskişehir Universitetinin aeroportu var. Bəzi universitetlərin bir fakültəsinə bizim bir universitetimizin binası həcmində yer verilib. Bu kimi universitetlərlə bizim ali təhsil müəssisələrimiz necə rəqabət aparsın? Azərbaycan Texniki Universitetinin rektoru Vilayət Vəliyev ilə biz ötən aylarda bəzi Türkiyə universitetlərində olduq. Qardaş ölkənin universitetləri son illərdə çox inkişaf edib. Burada həmçinin Qazaxıstan, Qırğızıstan universitetlərinə də diqqət çəkmək lazımdır. Bizim ali təhsil müəssisələrimizdə isə inkişafa nail olmaq üçün çox sayda addımlar atılmalı, mövcud problemlər aradan qaldırılmalıdır".

O.Gündüz hesab edir ki, universitetlərimizin beynəlxalq reytinqlərdə irəliləməsi üçün daha çox işi hökumət görməlidir. Onun sözlərinə görə, çox sayda nümunələr var ki, sanki hökumət hətta qabağa çıxmaq istəyən universitetlərimizi, necə deyərlər, "tutub saxlayır": "Rəqabətli mühitin inkişafı əvəzinə, mühit daha da məhdudlaşdırılır. Məsələn, gözümüzün önündədir ki, UNEC və digərləri distanta xeyli investisiyalar yatırdılar, müəllimləri, elektron resursları hazırladılar.

Lakin bununla onlar nəinki irəli çıxa bildilər, nəinki yeni təhsil xidmətini lokal və qlobal bazara çıxara bildilər, yatırılan investisiyadan nəinki pul qazana bildilər, əksinə, ziyana düşdülər. Səbəb çox sadədir. Qanunvericilik bu tip universitetlərin irəli çıxmasına mane olur. ETN də bu istiqamətdə yetərincə təşəbbüskar deyil.

Ölkədə on illərdi ki, rəqəmsallaşma gedir. Tələbələrin siyahıları bir neçə qurumun elektron reyestrlərindədir. Yəni tələbə miqrasiyasına nəzarət üçün hökumətin yetərli imkanları var. Amma hökumət diplom vermək səlahiyyətini universitetlərə vermək istəmir. Universitetlərimiz özlərinin təşkil etdiyi, beynəlxalq standartlardan aşağı olan distant təhsil əsasında tələbəyə diplom verir və hökumət bunu tanıyır. Amma Harvardı distant bitirənin diplomunu tanımır. Çünki qanunlarımız buna imkan vermir. Hətta ən xırda məsələlər üçün universitetlər ETN-ə müraciət etmək məcburiyyətindədir. Universitetlərimizin muxtariyyatı, müstəqilliyi ilə bağlı ciddi problemlər var. Düşünürəm ki, hökumət, universitetlərimiz regional və qlobal təhsil bazarına çıxmaq üçün, regional və qlobal təhsil platformalarına inteqrasiya üçün hələ çox iş görməlidir".

**Təhsil eksperti Kamran Əsədov isə deyib ki, dünyanın nüfuzlu agentlikləri dünya universitetlərinin reytinqinin tərtib olunmasında bir neçə meyar - akademik aləmdən olan ekspertlərin rəyi, professor-müəllim heyətinin tələbələrin sayına nisbəti, işəgötürənlər arasında reputasiyası, sitat gətirilmə indeksi, həmçinin xarici müəllim və tələbələrin payı nəzərə alınır:** "Universitetlər artıq dünya təhsilini bilən menecerlər tərəfindən idarə olunmalıdır. Artıq dünya universitetləri özləri pul qazanır, böyük büdcəyə sahibdirlər. Bizim universitetlər isə bu tendensiyalardan kənarda qalır. Ona görə də ali təhsil pilləsində ciddi şəkildə islahatlar həyata keçirilməlidir, müasir təhlili bilən, dünya təhlilindən xəbərdar olanlar idarəetməyə cəlb olunmalıdırlar. Çünki Azərbaycanda elmi tədqiqat işlərinin çox hissəsi lokal xarakter daşıdığından dünyada əhəmiyyəti olmayan mövzular olur. Ona görə də bizim elmlə məşğul olan insanların xarici jurnallarda məqalələri çox az saydadır. Başqa səbəb isə universitetə xarici tələbə axınının az olmasıdır. Təəssüf ki, bizim bəzi universitetlərin idarəçiliyi də aşağı səviyyədədir. Yəni bəzi universitetlərin rektoru təhsil ocağını şəxsi biznesləri kimi idarə edirlər. Azərbaycandakı ali təhsil müəssisələrinin çoxu dörd divar və partalardan ibarətdir. Hətta bəzilərinin heç kitabxanası da yoxdur".

Ekspert, həmçinin vurğulayıb ki, ən etibarlı reytinq Böyük Britaniyanın "Times Higher Education" jurnalı və "Thomson Reuters" agentliyinin hazırladığı reytinq hesab olunur.

"Bu agentliyin reytinqinin hazırlanması zamanı həmin universitetlərdə təhsilin qiyməti, internetə çıxış imkanları, müasir avadanlıqlarla təchiz olunma səviyyəsi və sair meyarlar əsas götürülür. Təəssüflər olsun ki, Azərbaycan universitetləri bu reytinqdə yoxdur. Azərbaycanda ali təhsilin bütövlükdə aşağı səviyyədə olması sirr deyil. Köhnə sovet tədris sistemi davam etdirilir. Ümumiyyətlə, Azərbaycanda professor, müəllim heyəti əsasən Boloniya sistemindən xəbərsizdir, bu sistemin mahiyyətini anlamır. Anlamadığından da onu təhrif olunmuş bir şəkildə tətbiq edir, hər zaman da əleyhinə təbliğat aparır. Ali məktəbi əla qiymətlərlə bitirən məzun işsiz gəzib dolaşır, onunla bərabər oxuyan və ondan çox zəif oxuyan tələbə müxtəlif yollarla yaxşı vəzifə tutur. Buna görə də Azərbaycanda təhsilə yalnız diploma sahib olmaq vasitəsi kimi baxırlar. Əlbəttə ki, istisnalar da var".

**Şəymən Bayramova**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə çap olunub

# Dərsə gedən bir uşaq...

## Son zamanların mənzərəsi belədir: məktəbli uşaqlar metroda yuxulayır, analar çanta daşıyır

**Məktəblərdə tənəffüs müddətinin artırılması təklif olunur. Elm və təhsil naziri Emin Əmrullayev AzTV-nin efirində yayımlanan "45 dəqiqə" verilişində məktəblərin birnövbəli tədrisə tam keçidindən söz açaraq, tənəffüs vaxtının artırılması ilə bağlı təkliflərə aydınlıq gətirib: "Orta hesabla tədris planımızda 36, 34, 29 saat dərs var. Həftədə 5 gün dərsə gəlmək istəyiriksə, sadə şəkildə 30-u 5-ə böldüyümüz zaman dərs 6 saat, yəni altı 45 dəqiqə edir. Tənəffüsləri 5 dəqiqə artırdığımız zaman isə qidalanma problemi yaşanacaq.**

Yəni uşaqlar səhər saat 8-də yemək yeyib məktəbə gəlir, günortaya kimi dərsi yekunlaşdırıb nahar üçün evə getməlidir. O səbəblə bu tipli sualların cavabını ayrı-ayrı məktəb kontekstinə buraxmaq lazımdır". E.Əmrullayev tənəffüs müddəti və dərs saatının başlaması kimi məsələlərin məktəb tərəfindən tənzimlənə biləcəyini qeyd edib: "Adətən sovet dövrü mistik müsbət formada xatırlanır, nümunə göstərilir. O dövrdə məktəblər ikinövbəli idi və buna rəğmən tənəffüs üçün 5 dəqiqə verilir. O zaman birnövbəli məktəbdə bu müddətin artırılması necə mümkün olar, deyə düşünmək lazımdır. Dərslərin saat 8-də başlaması da prinsipial mövqe deyil. Əgər valideynlər və məktəbin işçiləri razılığa gəlsələr, səhər dərsə 08:30-da da başlaya bilərlər. Bu tipli müzakirələri sadəcə mərkəzləşdirilmiş formada deyil, məktəblərin özləri üçün də təşkil etmək lazımdır. Əgər tənəffüsün 5 dəqiqə deyil, 7 dəqiqə olması uyğunlaşdırıla və tənzimlənə bilərsə, niyə də olmasın?".

Yenə də gəldik illərdir çıxmaza düşmüş təhsil sistemimizdəki problemlərə. Niyə vaxtilə "gül kimi" olan təhsil sistemimiz çərxi-fələk kimi baş-ayaqdı? Uşaqlar da əzab çəkir, müəllimlər də, əlavə qazanc əldə edən repetitorlar da. Valideynlər, ümumiyyətlə, uşaq məktəbi bitirəndə əsl bayram edir. Nədir bu bəla?.. Son zamanların mənzərəsi belədir: məktəbli uşaqlar metroda yuxulayır, analar çanta daşıyır, yeniyetmələr avtobusda ayaq üstə dura bilmir, səntirləyib yıxılırlar! İki dəfə buna şahid olmuşam. Bir gənc metroda durduğu yerdəcə yıxılıb, əyləşənlər qalxıb onu əyləşdirib, su içiriblər, az sonra özünə gəlib, məlum olub ki, məşğələdən gəlir. Bir yeniyetmə də kürəyində asma çanta avtobusda yerə çökmüşdü. Rəngi ağarmışdı, məlum oldu ki, o da məktəbdən gəlir. Əlbəttə, bütün məktəblilər, yeniyetmələr eyni vəziyyətdə deyil, lakin təhlükəlisi budur ki, səhhəti zəifləyənlərin sayə getdikcə artır. Təhsildən, tədris proqramından narazı valideynlərin də sayı durmadan artır. Heç kim əziyyətlə qazandığı pulu əlavə məşğələyə - repetitora həvəslə ödəməz. Arzu edər ki, məktəbdə normal dərs keçilsin, övladı da əldə etməli olduğu bilikləri məktəbdə qazansın. Lakin indiki zamanda bu mümkün olmadığından valideyn məcbur qalıb (çox təəssüf ki, bəzən bu, yersiz məcburiyyət olur) repetitor xidmətindən istifadə edir. Azərbaycan insanının ali təhsil "maniyası" onsuz da bəllidir. Bunu əziz insanlarımızın öz vicdanlarına, dəyişməyən anlayışlarına buraxaq.



*"Uşaqların böyük əksəriyyəti səhər nahar etmədən məktəbə gedir. Mədə boş, beyinə qlükoza çatmır, enerji ehtiyatı sıfır!"*

Keçək, digər vacib məsələyə. Təhsil nazirinin də toxunduğu tənəffüs və qidalanma məsələsinə. Birincisi, mühüm xatırlatma; SSRİ dövründə orta məktəblərdə 5 dəqiqəlik tənəffüs də vardı, 10 dəqiqəlik də və böyük sayılan 20 dəqiqəlik tənəffüs də. O zaman da məktəb bufetində basa-bas yaşanırdı. Xüsusən yuxarı sinif şagirdləri bufetə cumurdu və ən çox da kolbasa çörək alınırdı. İbtidai sinif, orta sinif şagirdləri isə adətən evdən gətirdikləri naharla qidalanırdı, sinifdəcə. Amma o zamanların da öz adətləri vardı. Məktəbə kəskin qoxulu yeməklərin gətirilməsinə yaxşı yanaşılmırdı. Qoxu sinifə yayılmasın, həm də başqa şagirdlər umsunmasınlar deyə. Bəli, zaman dəyişib, evdən nahar gətirənlərin sayı da azalıb, məktəbli çantasına nahar qoyan valideynlər də. Hər addımbaşı yüngül qidalar satılır. Bu yüngül qidaların əslində necə qorxulu və təhlükəli olmasının çox az adam fərqindədir. Məktəb bufetləri isə fərqli bir şey təklif etmir. Elə orada da kreker-mreker, hot-doq filan satılır. Şagirdin hətta bu yüngül qidalarla nahar etməyə vaxtının olmaması isə bir ayrı problemdir, həm də çox ciddi problem. Qeyd edək ki, tənəffüs və şagirdlərin qidalanmasıyla bağlı müxtəlif təkliflər var. Tənəffüs vaxtının uzadılması, məktəb bufetlərində isti yeməklərin hazırlanması da təkliflər arasındadır.

**Pediatr Vaqif Qarayev "Şərq"ə açıqlamasında təhsildəki problemlərdən danışmasını ona irad tutanların olduğunu dedi:**

- Mən təhsillə bağlı nəsə paylaşım edəndə, bəzən yazırlar "həkimsən, həkimliklə məşğul ol". Elə deyil. Uşaqlarla bağlı nə varsa, məni maraqlandırır və mənim üçün əhəmiyyətlidir. Çünki nəticə etibarilə valideynlər uşaqları mənim yanıma gətirir. Və mən uşaqların təhsildən aldığı yaraları sağaltmalı oluram. Elə bir valideyn tapmazsınız ki, uşağın təhsilinə görə narahat olmasın. Həmişə demişəm, yenə təkrar edirəm, uşaqlar həddindən artıq yüklənib. Məktəblilərin az qala 90 faizi skolioz xəstəliyindən əziyyət çəkir. Bellər əyilib uşaqların. Normal yuxu yatmırlar, normal qidalanmırlar, normal istirahət etmirlər. Uşaqların böyük əksəriyyəti səhər nahar etmədən məktəbə gedir. Mədə boş, beyinə qlükoza çatmır, enerji ehtiyatı sıfır! Uşaq fikrini cəmləyə bilmir, dərsi mənimsəyə bilmir. Məktəbə yata-yata gedir, məktəbdən repetitor yanına qaçır, evə də yata-yata gəlir. Bu nə müsibətdi?!. "Dünyanın hər yerində repetitorluq var" deyib, boş-boş sözlərlə özümüzü aldatmayaq. Dünyanın heç bir yerində belə kütləvi repetitorluq yoxdur. Məktəb normal tədris versə, bütün digər məsələlər avtomatik düzələcək. Repetitor yanına daha üstün bilik əldə etmək üçün gedəcək şagird, gündəlik tədris proqramını mənimsəmək üçün yox. Normal tədris proqramı tərtib edilsə, şagirdin tənəffüs zamanı normal şəkildə nahar etməsinə də vaxt qalacaq. Mən yolla gedərkən qarşıma çıxan uşaqların üzünə baxıram. Üzlərinin rəngi bom-bozdur, gözlərinin altı qap-qara. Bir səbəb ağır tədris yüküdürsə, bir səbəb də anormal qidalanmadır. Uşaq nə vaxt, harda, necə və nə yesin? Yuxarı sinif şagirdləri evdən nahar aparmayacaq. Bu bizim milli "mentalitetimizə" uyğun deyil. İndi heç balacalar da ev buterbrodu ilə qane olmur. Bunun əsl günahkarı həm də valideynlərdir, bunu da deyim. Valideynlərin günahı, onsuz da çoxdur. Biri uşağı çantasında nahar aparmağa alışdırmamaqdırsa, biri də valideynlərin 99 faizinin övladını ali təhsil diplomu ilə təmin etmək istəyidir. Etməyin! Vacib deyil hamı ali təhsilli olsun. İnanın, bu dəqiqə kombi ustası axtaran, ali savadlı hüquqşünas axtaranlardan qat-qat çoxdur. Müasir dünyada yaşayırıq. Müxtəlif peşələrə tələbat gündən-günə artır. Əl çəkin, ali təhsil ənənəsindən. Digər əsas məsələyə keçim. Şagirdlərin məktəbdə normal qidalanması və sağlam böyümələri üçün nə lazımdır? Tədris proqramını yüngülləşdirmək, şagirdləri əlavə, lazımsız dərslərdən azad etmək, belədə dərs saatları azalacaq, tənəffüs vaxtını artırmaq imkanı yaranacaq, şagirdlər də normal şəkildə qidalana biləcəklər. Həmçinin məktəb bufetlərində isti yeməklər hazırlanmasını təmin etmək. Təhsilə dövlət büdcəsindən ayrılan vəsaitdən bir qədər də buna pul sərf etsinlər. Uşaqlarımız sağlam olsun, bilikləri yaxşı mənimsəyə bilsinlər. Uşağın dərsdəki yorğunluğu canından çıxmalıdır ki, yediyi naharın ona bir xeyri dəysin. Yorğun insan nə yeyir yesin, canına yatmayacaq, o yeməyin bir faydası da olmayacaq.

**Məlahət Rzayeva**

# Son 50 ildə qızılın qiyməti ancaq artıb

## Var-dövlətin uzun vədəli saxlanması üçün qızıl ən yaxşı aktiv hesab olunur

**Nyu-Yorkun COMEX əmtəə birjasında qızılın bir troya unsiyasının qiyməti 0,12 faiz azalaraq, 1 774,8 ABŞ dollarına bərabər olub. Bu barədə "APA-Economics" birja məlumatlarına istinadən xəbər verir. Məlumata görə, COMEX-də gümüşün bir unsiyasının qiyməti 0,08 faiz artaraq, 22,13 dollar təşkil edib. Bu, ilk baxışda adi qiymət dəyişikliyi kimi görünə bilər. Lakin qızıl həvəskarları və övlad toyuna hazırlaşanlar üçün heç də əhəmiyyətsiz sayılmaz.**

Ümumilikdə türk xalqlarının zinət əşyalarına marağı və həvəsi bəlli həqiqətdir. Hətta tələtümlərin yaşandığı dünyamızda adət-ənənələr, sarsılmaz hesab edilən ehkamlar dəyişsə də, biz azərbaycanlılar da, Türkiyədəki qan qardaşlarımız da heç nəyə məhəl qoymadan qızıllı-gümüşlü toy etməkdəyik. Gəlinin üzərində nə qədər çox zinət əşyası olsa, bir o qədər tərifəlayiq sayılır və təqdir edilir. Əslində, zinət əşyalarına maraq və onları sərvət kimi toplamaq istəyi şəxsin bu məsələlərə və ümumilikdə dünyaya, həyata baxışından asılıdır. Sərvət aşiqləri bütün zamanlarda, bütün ölkələrdə və bütün millətlərin nümayəndələri arasında olub, bu gün də var. Məsələ həm də bundadır: sərvəti necə, hansı şəkildə saxlamaq - qızılla, nağd pulla, yoxsa daşınmaz əmlak halında?

**İqtisadçı Əkrəm Həsənovla bu məsələni müzakirə etdik. İqtisadçı sərfəli təkliflər verdi:**

- Qızıl, bütün zamanlarda ən yaxşı aktiv hesab olunub, bu gün də belədir. Siz internetdə axtarış verərək, son 50 ildə qızılın qiymətinin nə qədər artıb, nə qədər azaldığı barədə məlumat əldə bilərsiniz. Görəcəksiniz ki, qızılın qiyməti yalnız artıb. Həm də çox kəskin artıb. Müəyyən zamanlarda, özü də qısa zaman ərzində qızılın qiyməti çox cüzi düşür. Bu, hərdən-bir baş verir. Sonra yenidən qiymət artımı baş verir. Qızılın qiyməti demək olar, daim artır, ona görə ki, qızılın miqdarı məhduddur. Amma valyutalar, fərqi yoxdur, ABŞ dollar, avro, bütün valyutalar daim ucuzlaşır. Çünki pulun ümumi həcmi artır. Banklar mütəmadi əskinaslar istehsal edir. Valyutalar daim inflyasiyaya uğrayır. Qızıl belə problem yaşamır. Problem yalnız qızılı harda saxlamaqdadır. Adi insanlar qızıllarını evdə saxlayır. Adi insanın nə qədər qızılı olacaq ki?!. 2-3 üzük, boyunbağı, qolbağ və sair, bəzisində qızıl pullar. O da yenə məhdud sayda. Amma varlı adamlar sahib olduqları külli miqdarda qızılı harda saxlamaq problemi ilə üzləşirlər. Bankda saxlamaq olar, amma sabah, birisigün həmin bank bağlandı, o zaman nə edəcəklər? Bank onlara qızılı qaytarmayacaq. Bu problem xüsusilə hüquq sistemi normal işləməyən ölkələrdə yaşana bilir. Ona görə də dövri-qədimdən insanlar qızıllarını evdə, hardasa gizli bir yerdə saxlamağa üstünlük veriblər. Vardövlətim gözümün qarşısında, "əlimin altında" olsun", təfəkkürü ilə. Və sizə deyim ki, bu, ən doğru variantdır.



*Əkrəm Həsənov: "Valyutalar daim inflyasiyaya uğrayır. Qızıl belə problem yaşamır. Problem yalnız qızılı harda saxlamaqdadır"*

**İqtisadçı bildirdi ki, var-dövlətin uzun vədəli saxlanması üçün ikinci ən uyğun aktiv torpaq - daşınmaz əmlakdır. Lakin baxır harda:**

- Elə ölkələr var, yenə də deyirəm, hüquq sisteminin anormallığı səbəbindən insanların mülkləri əllərindən alına bilir. Varidata sahib şəxs bunu daşınmaz əmlaka, torpaq sahəsinə inteqrə edir. Amma bir gün onun torpağına, torpaq üzərindəki mülkünə də dövlət əl qoyur. Və şəxs onu heç cür geri qaytara bilmir. Təklif edərdim ki, müəyyən varidata sahib olanlar onu müxtəlif formalarda saxlasın. Yəni vardövləti bölüşdürsün - bir hissəsini qızıl şəklində, həm də evdə, bir hissəsini daşınmaz əmlak formasında, bir hissəsini nağd pul şəklində.

*Ə.Həsənov görünməz pul - bitkoinin də ümidverici olmadığını dedi:*

- Bitkoin məhz görünməz olduğundan təhlükəlidir. Ona yatırım etməyi məsləhət görmürəm. Sabah deyə bilərlər ki, bitkoin vardı, amma artıq yoxdur. Görünməyən pula necə etibar etmək olar?!

**Məlahət Rzayeva**



## Onlara mütləq sahib çıxmaq lazımdır

### Ahıska türkləri də Türkiyənin önəmli bir parçasıdır

**Türkiyənin Xarici işlər naziri Mövlud Çavuşoğlu Ahıska türklərinin müdafiəsindən danışıb. Çavuşoğlu bildirib ki, ahıskalılar 78 il əvvəl sadəcə türk olduqları üçün vətənlərindən sürgün ediliblər:**

"Türkiyə ahıska türklərinin müdafiəsini davam etdirəcək. Əlimizdən gələni edəcəyik". Qeyd edək ki, Ahıska türklərinin öz ata-baba yurdları olan Cənub-Qərbi Gürcüstandan Orta Asiyaya deportasiya edilməsindən 77 il keçir. Bütün çətinliklərə baxmayaraq, bu azsaylı xalq öz türklüyünü qoruyub saxlayıb. Məhz buna görə Gürcüstanı tarixi vətəni hesab edən ahıskalılar ilk növbədə Türkiyəyə öz tuturlar. Türkiyədə yaşayan eyni soylu xalqın mövcudluğu və bu ölkənin ahıskalılarla bağlı köç siyasəti onların axınına töhfə verən digər iki vacib amildir. Hazırda dünyanın Azərbaycan və Orta Asiya daxil olmaqla 9 ölkəsində 600 minə yaxın Ahıska türkü yaşayır. Onların bəzilərində təhlükəsizliklə bağlı narahatlıq və hərbi münaqişənin nəticələri hələ də ahıskalıları öz gələcəklərini yenidən nəzərdən keçirməyə məcbur edir.

**Türkoloq-alim Faiq Ələkbərli "Şərq"ə deyib ki, Ahıska türkləri də türklüyün önəmli bir parçasıdır. Alimin sözlərinə görə, sürgünə məruz qalmış, yerlərindən didərgin salınmış Ahıska türklərinə mütləq sahib çıxmaq lazımdır:** "Biz də Ahıska türkləri məsələsini daim gündəmdə saxlayırıq. Türkiyə XİN başçısı Mövlud Çavuşoğlunun da bununla bağlı açıqlaması təqdirəlayiqdir. 78 il öncə sırf türk olduqları üçün sürgün edilmiş Ahıska türklərinə Türkiyə də, Azərbaycan da sahib çıxmalıdır. Ahıska türkləri gec-tez öz yurdlarına geri dönəcəklər. Ancaq o vaxta kimi Türkiyə, Azərbaycan, o cümlədən Orta Asiya onların da vətənidir. Gürcüstan onlar üçün nə qədər doğmadırsa, illərlə yaşadıqları Azərbaycan və Türkiyə də dəyərlidir. Sürgünə məruz qalmış Aıska türklərinə doğmalıq, diqqət və qayğı hamımızın borcudur. Düzdür, Türkiyədə onlar üçün daha geniş şərait yaradılır. Amma Ahıska türkləri vaxtı ilə Azərbaycanda "Vətən" Cəmiyyəti yaratmışdılar. Onların bir çox tanınmış simaları var. Məsələn, Ömər Faiq Nemanzadə, Əhməd Pepinov və başqaları hər daim Azərbaycanın, bütün türk dünyasının böyük övladları sayılır. Ona görə də Ahıska türkləri həm də bizim məsələmizdir".

**İsmayıl Qocayev**

# Bütün yolları su basıb

## Nəqliyyatın hərəkəti iflic vəziyyətinə düşüb



**Hazırda respublika ərazisində yağışlı hava şəraiti hökm sürür ki, bu da hərəkət iştirakçıları üçün əlverişsiz mühit yaratmaqla yanaşı, yollarda qəza riskini də əhəmiyyətli dərəcədə artırır.**

Əlverişsiz hava şəraiti ilə əlaqədar Dövlət Yol Polisi əhaliyə müraciət edib.

Qeyd olunur ki, yağışlı, çiskinli havalarda nəqliyyat vasitələrinin sürüşmə ehtimalının artması, sürücülərin görmə məsafəsinin məhdudlaşması və digər əlverişsiz hava şərtləri yol-nəqliyyat hadisəsinin baş verməsinə real zəmin yaradır: "Mövcud hava şəraitini nəzərə alaraq, hər bir hərəkət iştirakçısı daha məsuliyyətli olmalı, yol hərəkəti qaydalarına qeyd-şərtsiz əməl etməlidir. Xüsusilə, sürücülər sürət həddini minimuma endirməli, ara məsafəsini normadan artıq saxlamalı, avtomobilin şüşəsilənlərinin, işıq cihazlarının saz vəziyyətdə olmasına, eləcə də dövlət nömrə nişanlarının təmizliyinə nəzarət etməli, yağış sularının yaratdığı gölməçələrdən keçərkən ehtiyatlı olmalı, ətrafdakı insanları nəzərə almalıdırlar".

"Unutmaq olmaz ki, piyadaların yağış suyu ilə isladılması qeyri-etik davranış olmaqla yanaşı, həm də inzibati məsuliyyət yaradır", - deyə bildirilib.

DYP əlverişsiz hava şəraitinin piyadaların hərəkətində də bir sıra çətinliklər yaratdığını qeyd etməklə yanaşı, təhlükəsizlik baxımından onları da məsuliyyətli olmağa çağırır, tələskənliyə yol verməməyi, səki ilə hərəkət etməyi, avtomobil yollarına çıxmamağı tövsiyə edir.

*"Kanalizasiyalar qurulur, küçə təmir edilir, amma yağışın axması üçün lyuklar qoyulmur"*

Təəssüf ki, Bakının yağışla imtahanı bitmir. Bakıya azacıq yağış yağan kimi paytaxtın küçələrində, o cümlədən iri avtomobil yollarında keçilməz gölməçələr yaranır. Halbuki, ilboyu yağışlı olan ölkələr var ki, avtomobillərin hərəkəti adi günlərdəki kimi davam edir. Bakıda isə yağışın yarım saat intensiv yağması kifayətdir ki, küçələrdə su dizə çıxsın. Bu isə həm sürücülər, həm də piyadalar üçün işgəncəyə çevrilir. Mütəxəssislərin fikrincə, Bakı şəhərində suötürücü və kanalizasiya sistemləri, su drenajları paytaxtın hazırkı vəziyyətinə hesablanmayıb. Memar bildirir ki, mövcud kanalizasiya sistemləri yağış sularının öhdəsindən gələ, daşıya bilmir. Bu da bir neçə il əvvəl bəzi ötürücü lyukların üzərinin asfaltlanmasıdır. Məhz buna görə yollar gölməçəyə dönür, məhz bu səbəbdən də piyadalar sürücülərin hərəkəti zamanı kənara sıçrayan yağışçirkab sularına tuş gəlir.

**Yol nəqliyyat məsələləri üzrə ekspert Eldəniz Cəfərovun "Şərq"ə açıqlamasına görə, yağış yağan kimi yolları su basmasının, nəqliyyatın hərəkətinin iflic vəziyyətə düşməsinin səbəbi yollar təmir olunarkən yağış xətlərinin çəkilməməsidir:** "Yollar çəkilərkən yağış xətləri qoyulmur. Yollarda gölməçələrin yaranma səbəblərindən biri də budur. Bəzən kanalizasiyalar qurulur, küçə təmir edilir, amma yağışın axması üçün luklar qoyulmur. Nəticədə yolları su basır, nəqliyyatın hərəkəti iflic olur. Bu, piyadalar üçün də ciddi problemlər yaradır. Çünki yağıntılar zamanı piyada keçidləri və səkilər su altında qalır. Əgər təsadüfi bir lyukun ağzı açıq qalsa, bu, potensial təhlükədir".

E.Cəfərovun fikrincə, Bakıda əhali sayının artmasının tıxaclarla o qədər də əlaqəsi yoxdur: "Bütün dünyada urbanizasiya problemi sürətlənib. Bu gün Azərbaycanda da bu proses gedir. Şəhərlərdə əhali sayının artımı tıxaclara səbəb olmamalıdır. Bakıdan qat-qat əhali sayı çox olan şəhərlər var. Amma orada ictimai nəqliyyat çoxşaxəlidir. İctimai nəqliyyat yaxşı işləyir. Yeraltı nəqliyyatdan daha çox istifadə edilir. Bakıda isə ümid avtobuslaradır. Onlar tıxacda qalan kimi, ictimai nəqliyyatın işi iflic olur, sərnişinlər yollarda qalır. Bakı şəhərində tramvay xəttinin ləğv olunması bu gün tıxaclara səbəb olan əsas amillərdəndir".

**Şəymən**


Təsisçi və baş redaktor: Akif Aşırlı
Baş redaktorun ı müavini: Yusif Nəzərli
Redaktor: Ayyət Əhməd

Reportyorlar qrupu:
Məlahət Rzayeva, Şəymən Bayramova, İsmayıl Qocayev, Kənan Eynuroğlu, Günəş Mərd, Aygün Tahir

Texniki heyət:
Rüfət Dadaşov, İmamcan Əliyev, İlahə İbrahimova, Nailə Cabbarlı, Fazilə Məmmədova

Qəzet "Şərq"in kompyuter mərkəzində yığılır, səhifələnir və "Azərbaycan" nəşriyyatında çap olunur

Qəzet Mətbuat və İnformasiya Nazirliyində qeydə alınıb.
Lisenziya: 535
www.sherg.az
e-mail: sherq-1996@mail.ru

Ünvan: Mətbuat prospekti, "Azərbaycan" nəşriyyatı.
Telefon: 447-32-41
538-44-50, internet 538-44-15,
İndeks: AZ1073

Hesab nömrəsi: "Kapitalbank"ın ASC 1 saylı Nəsimi filialı 9900003611
SWIFT BIK AII-BAZ2X h/h
AZ17AIIB38070019441100466111
Kod 200112 M/H
AZ37NABZ01350100000000001944
VÖEN 1300414651 İndeks: 0330 Tirajı: 2550 Sifariş: 3273


# İran hər zaman qorxulu düşməndir

## Elşad Miri: "Biz vətənpərvər insanlarla işləməsək, dinləşdirilən ideologiyanın altından qalxmağımız mümkün olmayacaq"

**"İranın adında islam respublikası kəlməsinin olmasına baxmayaraq, Vatikan kimi teokratik bir ölkənin fərqli bir versiyasıdır". Bunu "Şərq"ə açıqlamasında ilahiyyatçı Elşad Miri İran agenturasının və onun əlaltısına çevrilmiş molla ruhani klanının Azərbaycanda necə formalaşmasından danışarkən deyib.**

- O bildirib ki, İran Quranda yazılan firqələrə bölünməyin əksini həyata keçirir: "Onlar bölücülüklə və insanların din anlayışından istifadə edərək özünə tərəfdar toplamaqla məşğuldur. Təəssüf ki, bu gün Azərbaycanda özlərini dindar sayan bəzi məzhəb nümayəndələri hansısa dini lideri təqlid edirlər.

Onlar Xamenei kimiləri təqlid etməyəcəyi təqdirdə isə namazının və orucunun qəbul olmayacağını düşünürlər. Biz bunların qarşısını almaq üçün insanlarımıza düzgün din anlayışını aşılamalıyıq.

Yeni Azərbaycan din anlayışının Qurana əsaslanaraq özünə uyğun bir modelini tədbiq etməlidir. Bu olmadıqca ölkəmizdəki insanlar özlərini hansısa məzhəblərə aid hesab edərək, xarici qüvvələrə yönələcək. Təkcə İran əleyhimizə danışan və sərhədimizə qoşun yığdığı zaman yox, daimi şəkildə bunun üzərində iş aparmalıyıq. Ümumiyyətlə isə dövlət və xalq əl-ələ verib, hadisələrin kökünə enməlidir".

**Ekspert qeyd edib ki, dinin inkişafı ilə bağlı uzun illik proqramlar hazırlanmalıdır:** "Biz bunları vətənpərvər insanlarla birlikdə həll etmədikcə, dinləşdirilən ideologiyanın altından qalxmağımız mümkün olmayacaq. Sözügedən məsələləri bir xəbərdarlıq olaraq görməliyik. Düzdür, DTX əməliyyatlar keçirərək onların qarşısını müəyyən qədər alır. Lakin bundan öncə sosial şəbəkələr vasitəsi ilə vətəndaşlarımıza qarşı xeyli yanlış və zərərli dini təbliğatlar aparılıb.



Bu işlərin qarşısının alınmasında KİV-lər də ciddi iştirak etməlidir. Onlar din mövzusundan çəkinməməli və debatlar apararaq əhalini maarifləndirməyə yardımçı olmalıdır".

**Nihat Müzəffər**



# "Yaradanlar"

## Azərbaycan filmi "Oskar"a namizəd oldu

**Azərbaycanlı rejissor Şamil Əliyevin "Yaradanlar" ( CREATORS) filmi 95-ci Oskar Akademiyasının mükafatına namizədlərin siyahısına daxil olunub.**

Axşam.az xəbər verir ki, Mədəniyyət Nazirliyinin sifarişi ilə 2020-ci ildə "Salnamə" kinostudiyasında lentə alınan "Yaradanlar" filmi beynəlxalq festivallarda zəfər yürüşünü uğurla davam etdirir.

Ekran əsəri XX əsrin görkəmli Azərbaycan memarları Mikayıl Hüseynov və Sadıq Dadaşovun həyat və yaradıcılığı fonunda kommunist-bolşevik ideologiyasının Azərbaycanın mədəni irsinə və düşüncə tərzinə amansız təsirinin öyrənilməsindən bəhs edir.

*Qeyd edək ki, 95-ci "Oskar" mükafatlarının təqdimetmə mərasimi 2023-cü ilin martın 12-də keçiriləcək.*

*Filmin ideya müəllifi professor Elbay Qasımzadə, ssenari müəllifi Xalq yazıçısı Natiq Rəsulzadə, quruluşçu operatoru Rüfət Süleymanov, rəssamı Lalə Hüseynzadə, bəstəkarı Azər Əsgərov, prodüseri Nazim Hüseynovdur.*



## 11 yaşlı Yusif uşaq zəkası ilə Eynşteyni geridə qoydu

### Şah gələcəkdə Oksford və ya Kembricdə riyaziyyat təhsili almaq arzusundadır

**Böyük Britaniyanın Lids şəhərindən olan bir yeniyetmə zəka testində 18 yaşdan kiçik insanlar arasında ən yüksək bal toplayıb və intellekt baxımından Stiven Hokinq və Albert Eynşteyni qabaqlayıb.**

Oxu.az xəbər verir ki, 11 yaşlı Yusif Şahın dostları həmişə onun çox ağıllı olduğunu deyirdilər və bir gün yeniyetmə bunun doğru olub-olmadığını yoxlamaq qərarına gəlib. İntellektual qabiliyyətlərini qiymətləndirmək üçün Şah ”Mens IQ” testindən keçib və rekord qiymət alıb. Onun nəticəsi fiziklər Stiven Hokinq və Albert Eynşteyninkindən bir pillə yüksək olub. Yeniyetmə nailiyyətini valideynləri və qardaşları ilə birlikdə restoranda qeyd edib. Şahın anasının dediyinə görə, o, oğlunun uğurlarından çox qürur duyur, amma zarafatla qeyd edir ki, onsuz da atası daha ağıllıdır. ”Biz sevinirik, amma baş verənlərə çox da ciddi yanaşmırıq. Oğluma həmişə deyirəm ki, istedadlı olsan da, yenə də ən çalışqan olmalısan”, - deyə Yusufun anası bildirib. Şah gələcəkdə Oksford və ya Kembricdə riyaziyyat təhsili almaq arzusundadır.

## Avropada bu qış qeyri-adi dərəcədə isti keçəcək

### Bu da enerjiyə xeyli qənaət etməyə imkan yaradacaq



**Avropada bu qış qeyri-adi dərəcədə isti olacaq, bu da enerjiyə xeyli qənaət etməyə imkan yaradacaq.**

Azərtac xəbər verir ki, bu barədə Bloomberg agentliyi Avropa İqlim Dəyişiklikləri Mərkəzinə istinadla məlumat yayıb. Proqnozlara görə, Avropada bu qış hava həmişəkindən əhəmiyyətli dərəcədə isti keçəcək. Baltik, Aralıq dənizi və Şimal dənizlərinin sahilyanı rayonlarında temperaturlar tarixi səviyyədən yüksək olacaq.

”Qeyri-adi yüksək temperatur Aİ ölkələrinin öz anbarlarını doldurmağa tələsdiyi təbii qaza tələbatı azalda bilər. Rusiyanın Ukraynada apardığı müharibə yanacağın qiymətlərini görünməmiş həddə çatdırıb və regionda qiymət böhranına səbəb olub”, - Bloomberg belə yazır.

Dünya üzrə milyardlarla sensor oxunuşdan, eləcə də peyk məlumatlarından istifadə edən tədqiqatçıların fikrincə, Böyük Britaniyanın, Mərkəzi və Cənubi Avropanın əksər hissəsində qışın anomal dərəcədə isti keçməsi ehtimalı 50-60 faiz təşkil edir.

## Ciddi mübarizə olmasa...

### Hər gün 100 min avropalı öləcək



**Əgər iqlim dəyişikliyi ilə bağlı ciddi mübarizə olmasa, əsrin sonunda anomal istilər səbəbindən hər gün 90 min nəfər öləcək.**

**Axar.az xəbər verir ki,bu barədə ”Deyli Sabah” Avropa Ətraf Mühit Agentliyinə istinadla məlumat yayıb. Bildirilib ki, əgər əsrin sonuna qədər istiləşmə 3 drəcəyə qalxarsa, ölüm sayı gündəlik 90 min, 1,5 dərəcədə saxlanılarsa, onda 30 min nəfər olacaq. Avropada iqlim dəyişikliyi səbəbindən isti ölkələrə xas olan malyariyanın alovlanması baş verə bilər. Baltik dənizinin sularının qızması nəticəsində vəba xəstəliyinin yaranması da istisna edilmir.**

## Hərraca çıxarıldı

### Stiv Cobsun başmaqları 200 min dollara satılıb





**”Apple”ın keçmiş baş direktoru Stiv Cobsa məxsus ”Birkenstock” markalı başmaqlar 200 min dollara alıcı tapıb.**

**”Şərq” xarici mediaya istinadən xəbər verir ki, 2011-ci ildə dünyasını dəyişən texnologiya dünyasının ən əhəmiyyətli adlarından biri olan Stiv Cobsun başmaqları gündəmə gəlib.**

**”Apple” şirkətinin yaradıcısına məxsus ”Birkenstock” başmaqları ”Julien Auctions” evinin keçirdiyi hərracda satılıb.**

**60 min dollara alıcı tapacağı gözlənilən Cobsun başmaqlarını adı açıqlanmayan şəxs 218 min 750 dollara alıb. Alıcı həmçinin tərliklərin NFT versiyasını əldə edib.**

**Kaliforniya mərkəzi hərrac evi tərliklərin ”yaxşı vəziyyətdə” olduğunu və 70-80-ci illərdə Cobsun qarderobunun əsas elementi olduğunu bildirib.**

**Rəqəmsal dünya dövrünü başlayan Stiv Cobs, ”Apple”dəki işindən ayrıldıqdan 6 həftə sonra 56 yaşında mədəaltı vəzi xərçənginə məğlub olmuşdu.**

**Turan**




# "Görünüşümə nifrət edirəm"

### Keçmiş birinci xanım Mişel Obamanın etirafları maraqlıdır

**ABŞ-ın keçmiş birinci xanımı Mişel Obama yeni kitabında özü haqqında qeyd etdiyi bəzi fikirlərlə gündəmdədir. Görünüşünə nifrət etdiyini bildirən Obama, eyni zamanda, koronavirus epidemiyası zamanı ”aşağı səviyyəli depressiya” yaşadığını da açıqlayıb.**

”Şərq” xarici mediaya istinadən xəbər verir ki, ABŞ-ın keçmiş birinci xanımı yeni kitabında ”Mən 58 ildir qorxulu ağlımla yaşayıram. Bu məni narahat edir. Bu, məni zəif göstərir” ifadələrini işlədib.

Obama ”Gətirdiyimiz işıq” adlı ikinci memuarında həmişə görünüşünə nifrət etdiyini bildirib.

ABŞ-ın keçmiş birinci xanımı 2018-ci ildə yazdığı ”Mənim hekayəm” kitabına əsaslanan yeni kitabında xüsusilə boyu ilə bağlı kompleksi olduğunu açıqlayıb.

O, görünüşü ilə bağlı daim mənfi fikirlər yaşadığını bildirib.

Mişel Obama kitabında qeyd edib ki, özünü daha az nikbin hiss edir və gələcək haqqında rasional düşünə bilmir.

2016-cı il prezident seçkilərində Donald Trampın seçilməsinin ağrılı keçdiyini qeyd edən Obama, ”Ərimi prezident olaraq əvəzləyən adamın açıq şəkildə etnik təhqirlərdən istifadə etdiyini eşidəndə dərin sarsıldım” deyə bildirib.

ABC telekanalına müsahibəsində Mişel Obama Co Baydenin 2024-cü ildə yenidən seçilməsini dəstəkləməkdə tərəddüd edir.

***"Mən 58 ildir qorxulu ağlımla yaşayıram"***

Prezidentliyin çətin bir vəzifə olduğunu deyən Obama ”Bayden çətin şəraitdə əlindən gələni etdi” deyə vurğulayıb.

**Turan**





# Ukraynanın divarlarını bəzəyir

### Küçə rəssamının 7 əsərindən biri Vladimir Putinə aiddir



**Əsrarəngiz küçə rəssamı Benksi Ukraynanın Borodyanka şəhərində ortaya çıxan divar rəsmindən sonra Ukraynada ümumilikdə 7 əsərinin olduğunu açıqlayıb.**

”Şərq” xarici mediaya istinadən xəbər verir ki, dünya məsələlərinə güclü istinadlar edən və əsl kimliyi bilinməyən sənət əsərləri ilə tanınan Benksin Ukraynada ümumilikdə 7 divar rəsminin olduğunu açıqlayıb.

Bu yaxınlarda zədələnmiş binanın üzərində tarazlıq saxlayan qadın təsviri ortaya çıxan rəssam ”The Art Newspaper”ə deyib ki, Ukraynanın paytaxtı Kiyevdə və müxtəlif şəhərlərdə divar rəsmləri var.

Rəsm əsərlərindən birində qara kəmər taxmış bir oğlan yaşlı kişini yıxır. Bəzi sosial şəbəkə istifadəçilərinin fikrincə, əsər Rusiya Prezidenti Vladimir Putinə aiddir.



Müxtəlif ölkələrdə divar şəkilləri ilə məşhur olan britaniyalı qraffiti rəssamı Benksi son işini instaqram hesabında paylaşıb.

Qraffiti rəssamı əsərini ”Borodyanka, Ukrayna” qeydi ilə yaymışdı.

Paytaxt Kiyevin şimal-qərbində yerləşən Borodyanka işğalın əvvəlində Rusiya bombardmanlarından ən çox ziyan görən şəhərlərdən biri olub. Şəhərdə Benksiyə aid olduğu düşünülən iki fərqli divar rəsminin olduğu bildirilir.

Budur, Ukraynada yaranan Benksinin divar rəsmləri...

**Turan**

## Ceff Bezos öz sərvətinin çox hissəsini ianə verəcəyini vəd edib



**”Amazon” şirkətinin təsisçisi Ceff Bezos özünün böyük sərvətinin çox hissəsini sağlığında ianə verəcəyini bildirib.**

Azərtac xəbər verir ki, ”Forbes” jurnalının hesablamalarına görə, Ceff Bezosun sərvətinin ümumi dəyəri təqribən 124,1 milyard dollara bərabərdir. Bu bəyanatı CNN kanalına müsahibəsində səsləndirən milyarder həmin pulları kimə və necə verəcəyini dəqiqləşdirməyib, lakin ”hazırda bundan ötrü əsas yaratdığını” söyləyib.

”Bunu ağlabatan şəkildə necə etmək lazım olduğunu anlamaq çox çətindir. Bu, sadə məsələ deyil. ”Amazon” şirkətinin yaradılması asan olmadı. Bundan ötrü çox gərgin işləmək və çox ağıllı komanda yoldaşları lazım idi”, - deyən Ceff Bezos daha sonra əlavə edib ki, xeyriyyəçilik fəaliyyəti çətinliyinə görə pul qazanmağa oxşayır.

Əvvəllər Ceff Bezosu tənqid edirdilər ki, o, milyarderləri öz sərvətlərinin çox hissəsini xeyriyyəçilik üçün ianə verməyə sövq etmək üçün Bill Qeyts, Melinda Frenç Qeyts və Uorren Baffet tərəfindən başlanmış ”Giving Pledge” kampaniyasına qoşulmayıb. Bezosun keçmiş həyat yoldaşı Makkenzi Skott 2019-cu ildə bu öhdəliyi imzalayıb və o vaxtdan xeyriyyəçilik aləmində əsas simalardan birinə çevrilib. Skott bütün ölkədəki müvafiq təşkilatlara gözlənilmədən ianələr verir və çox vaxt bu fəaliyyəti gizli şəkildə həyata keçirir. Son üç ildə o, Afrika mənşəli amerikalılar üçün kollec və universitetlərə, qadınların hüquqlarını müdafiə qrupuna və digər qeyri-kommersiya strukturlarına 12 milyard dollardan çox ianə verib.

2019-cu ildə Bezos Makkenzi Skott ilə boşanıb, keçən il isə xeyriyyəçiliyə və başqa layihələrə daha çox vaxt və diqqət ayıra bilmək üçün ”Amazon” şirkətinin baş direktoru vəzifəsindən istefa verib. Bezos özünün ”Bezos Earth Fund” təşəbbüsü çərçivəsində iqlim dəyişmələrinə qarşı mübarizə üçün 10 milyard dollar ayırmağı vəd edib. ”The Chronicle of Philanthropy” jurnalının məlumatına görə, Bezos keçən il xeyriyyəçilik məqsədləri üçün 510,7 milyon dollar ianə verib.

## Dünya əhalisi 8 milyard nəfərə çatıb



**Yer kürəsində əhalinin sayı 8 milyard nəfərə çatıb.**

Bu barədə dünən BMT-nin yayımladığı hesabatda deyilir.

Qeyd olunub ki, dünya əhalisi 12 il ərzində 7 milyard nəfərdən 8 milyarda çatıb.

Eyni zamanda, təşkilat 9 milyard həddinin 2037-ci ildə əldə olunacağını proqnozlaşdırır.

2100-cü ildə dünya əhalisinin 10,4 milyarda çatacağı ehtimal edilir.